

RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 173 (9052) ÇƏRŞƏNBƏ AXŞAMI, 16 avqust 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## Prezident qətiyyəti

## İlham ƏLİYEV: "Ərzaq təhlükəsizliyi məsələləri əminəm ki, Azərbaycanda maksimum dərəcədə təmin olunacaq"

Azərbaycan iqtisadiyyatı dünya iqtisadiyyatının ayrılmaz hissəsidir. Odur ki, dünyada gedən iqtisadi proseslər ölkəmizə də təsir edir. O cümlədən ərzaq məhsullarının bahalaşması da ölkəmizə təsirsiz qalmır.

Bu gün dünyada ərzaq təhlükəsizliyi ilə bağlı böyük narahatlıq olduğuna görə Azərbaycan bu istiqamətdə fəal iş aparır. Məqsəd görülmüş və görüləcək işlər nəticəsində ölkədə ərzaq təhlükəsizliyini maksimum dərəcədə təmin etməkdir. Doğrudur, kənd təsərrüfatının inkişafı ilə bağlı əvvəlki illərdə qəbul edilmiş qərarlar müsbət nəticəsini verir. Lakin dünyadakı ərzaq bahalaşması bu sahədə yeni, ardıcıl tədbirlərin həyata keçirilməsini tələb edir.

Xüsusilə taxıl qıtlığı bu gün müzakirə olunan başlıca mövzulardan birinə çevrilib. Təsadüfi deyil ki, Prezident İlham Əliyev İsmayıllı rayonuna səfəri zamanı Basqal qəsəbəsində Azərbaycan televiziyasına verdiyi müsahibədə bu məsələyə xüsusi olaraq toxunub: "Əfsuslar olsun ki, biz özümüzü taxılla hələ uzun illər tam təmin edə bilməyəcəyik. Özümüzü buğda ilə təminetmə əmsalı Azərbaycanda bu ilin əvvəlinə 62 faiz idi. Məhz bu məqsədlə xüsusi proqram işlənib hazırlandı, yeni növ subsidiyaların tətbiq edilməsinə start verildi və bunun nəticəsində əminəm ki, ərzaqlıq buğdanın Azərbaycanda istehsalı kəskin artacaq. Ancaq bu, vaxt tələb edəcək. Mən hesab edirəm ki, təqribən 3-4 il ərzində biz özümüzü ərzaqlıq buğda ilə 80 faiz səviyyəsində təmin edə bilsək, bu, çox böyük nəticə olacaqdır".

Lakin bu gün söhbət təkcə qiymətdən getmir. Eyni zamanda taxıl qıtlığı yaşanır. Rusiya-Ukrayna müharibəsi nəticəsində bir çox ölkələr fiziki cəhətdən öz əhalisini buğda ilə, taxılla təmin edə bilmirlər.

→ 4

## Qafqazın siyasi güc mərkəzi

### İlham Əliyevin uğurlu diplomatiyası, qlobal təşəbbüsləri dünyanın Azərbaycana olan marağını getdikcə artırır

Hazırda Azərbaycan regionun ən sürətlə inkişaf edən qüdrətli ölkəsidir. Ötən illər ərzində respublikamızın bölgələrinin inkişafı istiqamətində həyata keçirilən layihələrin uğurlu göstəriciləri, yaranan mənzərə hər bir ölkə üçün nümunə ola bilər. Ölkəmizin maliyyə imkanlarının artması isə onu deməyə əsas verir ki, qarşıdakı dövrdə də sosial-iqtisadi inkişafa yönəlik istənilən layihə uğurla reallaşdırılacaq, dövlət proqramları icra olunacaq.

Son 20 ildə Azərbaycan sürətli və hərtərəfli inkişafla bərabər, həm də beynəlxalq tədbirlərin, forum və konfransların, sərgilərin keçirildiyi məkan kimi də tanınıb. Dünyanın elə bir mötəbər təşkilatı tapılmaz ki, Bakıda onun toplantısı keçirilməsin. Bu da, əlbəttə ki, Azərbaycanın beynəlxalq miqyasda siyasi çəkisinin yüksəlişinə xidmət edən amillərdən biridir.

→ 3

## Azərbaycanın beynəlxalq nəqliyyat potensialına Mərkəzi Asiya ölkələri də böyük maraq göstərirlər



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 15-də Qırğız Respublikasının Nazirlər Kabinetinin Sədr müavini Bakıt Torobayevi qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Azərbaycan Respublikası ilə Qırğız Respublikası arasında iqtisadi və humanitar sahələrdə əməkdaşlıq üzrə birgə hökumətlərarası komissiyanın Bakıda keçiriləcək iclasına toxunaraq, bu formatın iqtisadi və digər sahələrdə qarşılıqlı fəaliyyətin möhkəmlənməsi işinə xidmət edəcəyinə ümidvarlığını bildirdi.

İkitərəfli əlaqələrdən danışan dövlətimizin başçısı yüksəksəviyyəli qarşılıqlı səfərlərin münasibətlərimizin genişləndirilməsinə verdiyi töhfəni qeyd etdi. Bu baxımdan Qırğız Respublikası Prezidentinin bu il ölkəmizə səfəri zamanı əməkdaşlığın geniş gündəliyi ilə bağlı səmərəli danışıqların aparıldığını və dövlət başçıları arasında çox yaxşı şəxsi təmasın qurulduğunu dedi. Prezident İlham Əliyev bildirdi ki, səfər çərçivəsində ikitərəfli əlaqələrin möhkəmləndirilməsi, beynəlxalq təşkilatlarda əməkdaşlıq, Azərbaycanın Qırğızıstana investisiya qoyuluşu və əməkdaşlığın digər sahələrini əhatə edən məsələlərlə bağlı müzakirələr aparılıb.

Ölkəmizdə şaxələndirilmiş nəqliyyat infrastrukturunun yaradıldığını qeyd edən dövlətimizin başçısı Azərbaycanın beynəlxalq nəqliyyat potensialına digər ölkələrin, o cümlədən Mərkəzi Asiya ölkələrinin getdikcə daha böyük maraq göstərdiyini bildirdi, eyni zamanda Mərkəzi Asiya regionunda da Xəzər dənizi hövzəsinə çıxan yeni dəmir yolu şəbəkələrinin yaradılması ilə bağlı planların da əhəmiyyətini vurğuladı.

Bakıt Torobayev ilk növbədə Qırğız Respublikasının Prezidenti Sadır Japarovun salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Sadır Japarova çatdırmağı xahiş etdi.

Qonaq qeyd etdi ki, tarixi, mədəni köklərə söykənən Azərbaycan-Qırğızıstan münasibətlərinin müasir dövrdə əsası dünya səviyyəli tarixi şəxsiyyət, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulub və bu gün Prezident İlham Əliyevin dəstəyi ilə strateji tərəfdaşlıq səviyyəsinə qalxıb.

Söhbət zamanı humanitar və təhsil sahələrində əməkdaşlığın önəmi qeyd edildi, kənd təsərrüfatı, energetika, investisiya qoyuluşu ilə bağlı gələcək əməkdaşlıq məsələləri müzakirə olundu.

## Prezidentin xəbərdarlığı Ermənistan üçün ciddi siqnal olmalıdır

### Əks təqdirdə ermənilər aqibətlərinin acınacaqlı olacağını yaxşı başa düşürlər

Vətən müharibəsindəki şanlı zəfərdən sonra Azərbaycan yenə də humanist addımlar ataraq məğlub Ermənistanı sülhə dəvət edir, ona düşdüyü acınacaqlı durumdan qurtuluş yolu göstərir. Prezident İlham Əliyev eyni zamanda bütün çıxışlarında erməniləri çirkin əməllərdən, təxribatlardan yayınmağa çağırır.

Azərbaycan Prezidenti sülh müqaviləsinin bağlanmasının həm Ermənistan, həm də region üçün əhəmiyyətli olduğunu dəfələrlə vurğulayıb.

Lakin Ermənistan rəhbərliyi hər vəchlə sülhdən yayınır, hələ bu azmış kimi, Azərbaycan torpaqlarında saxladığı qanunsuz silahlı birləşmələri vasitəsilə təxribatlar da törədir. Beləliklə, 10 noyabr Bəyanatında üzərinə düşən öhdəlikləri yerinə yetirmir.

Prezident İlham Əliyev Azərbaycan televiziyasına müsahibəsində bir daha erməni xalqına mesaj ünvanlayaraq vəziyyəti düzgün təhlil etmələrini bildirdi. Eyni zamanda Laçına, Zabuxa tezliklə qayıdacağımızı diqqətə çəkdi, Ermənistana avqustun sonuna kimi vaxt verildiyini qeyd etdi. İndi seçim Ermənistanındır.

→ 3



## 815 güzəştli mənzil satışa çıxarılır

→ 4

## Qədimiliklə müasirliyin görüş yeri - Basqal

Tarix yalnız müxtəlif dövr və zamanların bir-birini əvəzləməsi deyil. Müdriklər hesab edirlər ki, tarix yer üzündə yaşamış və köçüb getmiş insanların tarixi portretlər qalereyasıdır. Hər qarış torpağından tarix boylanan ana yurdumuz babalarımızın qəhrəmanlığını daş kitabələrin daş yadddaşına yazdıqları milyon illərin mədəni abidələrinin saxlanc yeridir. Yurdumuzun bənzərsiz təbii gözəlliklərlə əhatə olunmuş qədim yaşayış məskənlərindən biri də İsmayıllı rayonunun Basqal qəsəbəsidir. Bakıdan 160 kilometr məsafədə, dəniz səviyyəsindən 965 metr yüksəklikdə 240 hektar ərazidə əsrarəngiz təbiəti, qədim tarix və mədəniyyəti, yüksək qonaqpərvərliyi ilə seçilən Basqal qəsəbəsi xalq sənətkarlığını qoruyub saxlayan və bu günə qədər yaşadan sənətkarlıq mərkəzlərindəndir.

Basqal qəsəbəsi iki əsas hissədən - qədim Basqaldan və son 70-80 ildə Basqal çayının sağ sahilində salınmış yerli sakinlərin "O tay" adlandırdığı, yəni müasir Basqaldan ibarətdir.

→ 4



## Gimnastlarımız tarix yazdılar

→ 7

# Milli Məclisdə "Siyasi partiyalar haqqında" yeni qanun layihəsi üzərində iş davam edir

Milli Məclisdə təmsil olunan bütün siyasi partiyaların nümayəndələri "Siyasi partiyalar haqqında" yeni qanun layihəsinin hazırlanması üçün parlamentin sədrinə müraciət ediblər. Müraciətdə ölkəmizin müasir inkişaf reallıqlarına və dövrün tələblərinə cavab verən yeni qanunun hazırlanmasının vacibliyi öz əksini tapıb.

Hazırda Milli Məclisin Sədri Sahibə Qafarovanın müvafiq tapşırığına əsasən, böyük ictimai əhəmiyyət kəsb edən bu yeni qanun layihəsinin hazırlanması üzərində iş davam edir. Artıq Azərbaycanda dövlət qeydiyyatına alınmış 29 siyasi partiya yeni qanun layihəsinə dair təkliflərini Milli Məclisə təqdim edib. Bunlar aşağıdakı partiyalardır:

1. Vətəndaş Həmrəyliyi Partiyası
2. Ana Vətən Partiyası
3. Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası
4. Böyük Quruluş Partiyası
5. Vəhdət Partiyası
6. Azərbaycan Demokratik Maarifçilik Partiyası
7. Demokratik İslahatlar Partiyası
8. Vətəndaş Birliyi Partiyası
9. Milli Cəbhə Partiyası
10. REAL Partiyası
11. Azərbaycan Demokrat Partiyası
12. Böyük Azərbaycan Partiyası
13. Azərbaycan Milli İstiqlal Partiyası
14. Ədalət Partiyası
15. Azərbaycan Liberal Demokrat Partiyası
16. Milli Vəhdət Partiyası
17. Aydınlar Partiyası
18. Azərbaycan Naminə Alyans Partiyası
19. Azərbaycan Sosial Demokrat Partiyası
20. Azərbaycan Sosial Rifah Partiyası
21. Cümhuriyyət Xalq Partiyası
22. Müstəqil Xalq Partiyası
23. Milli Həmrəylik Partiyası
24. Azərbaycan Respublikaçılar Partiyası
25. Azərbaycan Təkamül Partiyası
26. Milli Demokrat İdrak Partiyası
27. Gələcək Azərbaycan Partiyası
28. Haqq Ədalət Partiyası
29. Azərbaycan Yüksəliş Partiyası

***Aydan XƏLİLOVA, "Azərbaycan"***

# Dövlət Komitəsində Zabux və Sus kəndlərinin sakinlərindən bir qrupu ilə görüş

Avqustun 15-də Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsində Laçın rayonunun Zabux və Sus kəndlərinin sakinlərindən bir qrupu ilə görüş keçirilib.

Komitədən AZƏRTAC-a bildiriblər ki, Azərbaycanın ərazi bütövlüyünün bərpası, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda canını qurban verən şəhidlərin xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Görüş iştirakçıları Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun torpaqlarımızı işğaldan azad etməsini misilsiz tarixi hadisə kimi dəyərləndirərək, qazanılan Qələbənin keçmiş məcburi köçkünlərin doğma yurda qayıdışına imkan yaratdığını bir daha dərin minnətdarlıq hissi ilə vurğulayıblar. Qeyd olunub ki, Ermənistanın döyüşsüz təhvil verməyə məcbur olduğu Laçın rayonunda, Rusiya sülhməramlılarının müvəqqəti nəzarət etdiyi ərazidə qanunsuz məskunlaşdırılmış ermənilərin hazırda oradan köçürülməsi 2020-ci ilin 10 noyabrında imzalanmış üçtərəfli Bəyanat çərçivəsində həyata keçirilir. Bildirilib ki, bununla əlaqədar olaraq dövlət başçısı otuz ilə yaxındır məcburi köçkün vəziyyətində yaşayan Laçın şəhəri, Zabux və Sus kəndləri sakinlərinin qayıdışa hazırlanması barədə tapşırıq verib.

Ötən müddət ərzində məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması, sosial müdafiəsinin gücləndirilməsi istiqamətində görülən işlərdən razı qaldıqlarını deyən görüş iştirakçıları onlara göstərilən diqqət və qayğıya, indi isə doğma yurda qayıdışa hazırlığın başlanmasına görə Prezident İlham Əliyevə, hər zaman böyük dəstəyinə güvəndikləri Birinci vitse-prezident Mehriban Əliyevaya təşəkkürlərini ifadə ediblər.

Komitə sədri dövlət başçısının işğaldan azad edilmiş ərazilərin bərpası, məcburi köçkünlərin doğma yurda qayıdışının başlanması üçün verdiyi tapşırıqların icra vəziyyəti barədə görüş iştirakçılarına ətraflı məlumat verilib. Bildirilib ki, komitənin struktur bölmələri Laçın şəhərinə, Zabux və Sus kəndlərinə qayıdışın təşkili ilə bağlı müəyyənləşdirilmiş tədbirlərin icrası ilə məşğuldurlar. Qeyd olunub ki, doğma yurda qayıdacaq sakinlərin sayının dəqiqləşdirilməsi, məşğulluq imkanlarının qiymətləndirilməsi, arzu, istək və tələblərinin müəyyənləşdirilməsi üçün sorğular aparılır, köçürülmənin səmərəli təşkili üçün zəruri tədbirlər həyata keçirilir.

Səmimi qəbula görə minnətdarlıq edən Zabux və Sus kəndlərinin sakinləri uzun illər həsrətini çəkdikləri doğma yurda qayıdıb, firavan günlər yaşayacaqlarına, o yerləri yenidən dirçəldəcəklərinə əmin olduqlarını bildiriblər.

Xatırladaq ki, Prezident İlham Əliyev avqustun 12-də İsmayıllı rayonunun Basqal qəsəbəsində Azərbaycan televiziyasına müsahibədə verib. Dövlət başçısı bildirib: "Biz Laçına qayıtmalıyıq, Zabuxa, Susa qayıtmalıyıq. Mən artıq "Dövlətqaçqınkom"a göstəriş verdim, Laçın şəhərinin, Sus, Zabux kəndlərinin camaatı ilə əlaqə saxlasınlar. Biz yaxın zamanlarda onları öz doğma yerlərinə qaytaracağıq".

# _Nazir müavini:_ "Ermənistanın Azərbaycana qarşı ekoloji terrorunun davam etməsinin bu gün də şahidiyik"

"Son günlər Laçın və Xocalı meşələrinə ermənilər tərəfindən od vurulmasını nümayiş etdirən görüntülərdə əks olunanları qətiyyətlə pisləyir, bu hərəkətləri təbiətə qarşı cinayət və ekoloji terror kimi qiymətləndiririk".



AZƏRTAC xəbər verir ki, bunu ekologiya və təbii sərvətlər nazirinin müavini Firdovsi Əliyev bildirib.

"Ermənistanın Azərbaycana qarşı ekoloji terrorunun bu gün də davam etməsinin şahidiyik. Azərbaycan ərazilərində qeyri-qanuni məskunlaşmış ermənilər təkcə xalqımıza qarşı deyil, eyni zamanda təbiətimizə və təbii sərvətlərimizə, bütövlükdə isə bəşəriyyətə qarşı ekoloji terror aktını həyata keçirməkdə davam edirlər. İşğal dövründə Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcər, Şuşa meşələrini yandırmaqla kifayətlənməyən ermənilərin indi də Xocalı və Laçın ərazisindəki meşə ərazilərimizi yandıraraq ətraf mühitə qəsdən zərər vurması, həmin ərazilərin onlara məxsus olmadığını göstərməklə bərabər, təbiətə düşmən münasibətin birbaşa təsdiqidir", - deyə F.Əliyev qeyd edib.

Nazir müavini əlavə edib ki, qeyd olunan hadisə nazirlik tərəfindən daha detallı araşdırılacaq və mövcud faktlar beynəlxalq hüquqa müvafiq olaraq qiymətləndiriləcək.

# Azərbaycan vətəndaşlığı almaq istəyən ermənilərin Ermənistanda təqib olunması ilə bağlı beynəlxalq hüquq müdafiə təşkilatlarına müraciət ünvanlanıb

Azərbaycanda fəaliyyət göstərən insan hüquqları müdafiəsi ilə məşğul olan QHT-lər Azərbaycan Respublikasının vətəndaşlığını almaq üçün müraciət edən və Ermənistan Baş Prokurorluğu tərəfindən təqibə məruz qalan şəxslərlə bağlı beynəlxalq hüquq müdafiə təşkilatlarına müraciət ünvanlayıb. AZƏRTAC xəbər verir ki, 25 QHT sədrinin imzaladığı müraciətdə deyilir:

"Biz Azərbaycanda fəaliyyət göstərən insan hüquqları müdafiəsi ilə məşğul olan QHT-lər böyük narahatçılıq hissi ilə bildiririk ki, Azərbaycan vətəndaşlığı almaq üçün Prezident İlham Əliyevə müraciət etdiklərinə görə İşxan Verdiyan və Vahe Qəmbəryana qarşı Ermənistan Respublikasının Baş Prokurorluğu tərəfindən cinayət işi açılıb. Əfsuslar olsun ki, Ermənistan rəhbərliyi Azərbaycan vətəndaşı kimi qanuni əsaslarla Xankəndidə, eləcə də qonşu şəhər və kəndlərdə yaşamaq istəyən Ermənistan vətəndaşlarını belə addımlarla qorxutmaq niyyəti güdür. Eyni zamanda rəsmi İrəvan Qarabağda yaşayan əhali arasında Azərbaycanla və azərbaycanlılarla sülh şəraitində yaşamağın zəruriliyini bəyan edən vətəndaşları "təxribatçı fəaliyyətlər" zəminində günahlandırırlar.

Azərbaycanın sülh və barış cəhdlərini belə faktlarla əngəlləməyə çalışan Ermənistan rəhbərliyi sözügedən şəxslərə qarşı qanunsuz hərəkətləri ilə BMT-nin Mülki və Siyasi Hüquqlar haqqında paktda və İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyasının və digər əlaqədar beynəlxalq hüquq normalarını kobud şəkildə pozur. Belə ki, beynəlxalq insan hüquqları normalarına əsasən, hər bir kəs azadlıq və toxunulmazlıq hüququna, hər hansı bir milli, irqi, dini, etnik və sosial mənşəyinə görə diskriminasiyaya məruz qalmamaq hüququna, hansısa dövlətin ərazisində olan hər bir kəs bu ərazinin hüdudları daxilində sərbəst hərəkət etmək və yaşayış yerini sərbəst seçmək hüququna malikdir. Heç kim öz ölkəsinə gəlmək hüququndan özbaşınalıqla məhrum edilə bilməz və buna görə təqib edilə bilməz. Eyni zamanda bu konvensiyalara əsasən, hər kəs öz fikrini ifadə etmək azadlığı hüququna malikdir. Bu hüquqa öz fikrində qalmaq azadlığı, dövlət hakimiyyəti orqanları tərəfindən hər hansı maneçilik olmadan və dövlət sərhədlərindən asılı olmayaraq, məlumat yaymaq azadlığı daxildir.

Yuxarıda göstərilən faktları nəzərə alaraq Azərbaycanda fəaliyyət göstərən insan hüquqları müdafiəsi ilə məşğul olan QHT-lər adından Sizə müraciət edir, Azərbaycanın regionda sülh və barış cəhdlərini əngəlləməyə çalışan Ermənistan rəhbərliyinə qarşı müvafiq tədbirlər görməyi tələb edirik".

**İmzaladılar:**

1. Novella Cəfərova - "Dilarə Əliyeva adına Azərbaycan Qadınlarının Hüququnu Müdafiə Cəmiyyəti" İctimai Birliyinin sədri;
2. Səadət Bənənyarlı - "Beynəlxalq İnsan Hüquqları Cəmiyyətinin Azərbaycan Milli Bölməsi" İctimai Birliyinin sədri;
3. Səidə Qocamanlı - "İnsan Hüquqları və Qanunçuluğun Müdafiəsi" İctimai Birliyinin sədri;
4. Əliməmməd Nuriyev - "Konstitusiya" Araşdırmalar Fondunun prezidenti;
5. Sahib Məmmədov - Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqasının sədri;
6. İlqar Hüseynli - "Sosial-Strateji Tədqiqatlar və Analitik Araşdırmalar" İctimai Birliyinin sədri;
7. Azər Allahverənov - "Avrasiya Miqrasiya Təşəbbüsləri Platforması" İctimai Birliyinin sədri;
8. Zaur İbrahimov - "Prioritet" Sosial İqtisadi Araşdırmalar Mərkəzi İctimai Birliyinin sədri;
9. Günel Səfərova - "Vətəndaş Tədqiqat və İnkişaf" İctimai Birliyinin sədri;
10. Vüsalə Hüseynli - "İslahatçı Qadınlar və İnnovasiyalar" İctimai Birliyinin sədri;
11. Əhməd Abbasbəyli - "Cəmiyyətin və Vətəndaş Münasibətlərinin İnkişafı" İctimai Birliyinin sədri;
12. Rauf Zeyni - Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumunun prezidenti;
13. Nüşabə Məmmədova - "Beynəlxalq Dialoq və İnkişaf Alyansı" İctimai Birliyinin sədri;
14. Səməd Vəkilov - "Müvəkkil Hüquq Mərkəzi" İctimai Birliyinin sədri;
15. Şahin Camalov - "İnsan Hüquqları XXI əsr-Azərbaycan" Fondunun prezidenti;
16. Mirəli Hüseynov - "Demokratiyanı Öyrənmə" İctimai Birliyinin sədri;
17. Rəsul Cəfərov - "Bakı İnsan Hüquqları Klubu" İctimai Birliyinin sədri;
18. Hafiz Həsənov - "Hüquq və İnkişaf" İctimai Birliyinin sədri;
19. Umud Mirzəyev - Beynəlxalq Avrasiya Mətbuat Fondunun prezidenti;
20. Rəfail Becanov - "İnsan Hüquqları və Maarifçilik" İctimai Birliyinin sədri;
21. Ramil İsgəndərli - "Hüquqi Təhlil və Araşdırmalar" İctimai Birliyinin sədri;
22. Rey Kərimoğlu - "Azərbaycanda Minadan Zərərçəkənlərin Assosiasiyası" İctimai Birliyinin sədri;
23. Xalid Kazımov - "Regional İnsan Hüquqları və Media Mərkəzi" İctimai Birliyinin sədri;
24. Cəsarət Hüseynzadə - "İnformasiya Təşəbbüslərinə Dəstək" İctimai Birliyinin sədri;
25. Elçin Salmanov - "Azərbaycan Gənclərinin Hüquqlarının Müdafiəsi Mərkəzi" İctimai Birliyinin sədri".

# "Artilleriya atəşinin ustaları" müsabiqəsi başlayıb







"Beynəlxalq Ordu Oyunları-2022" yarışları çərçivəsində Qazaxıstan Respublikasının Otar hərbi bazasında keçirilən "Artilleriya atəşinin ustaları" müsabiqəsinin ilkin mərhələsi başlayıb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, bu mərhələdə komandalar zirehli döyüş maşınlarında marşrut üzrə təyin olunan müxtəlif maneələri dəf edərək minalanmış ərazini keçib, pulemyotlardan, minaatanlardan, qumbaraatanlardan və atıcı silahlardan atəş tapşırıqlarını yerinə yetiriblər.

Peşəkarlıq nümayiş etdirən artilleriyaçılarımız birinci mərhələdə bütün hədəfləri sərrast atəşlə məhv ediblər.

# "Beynəlxalq Ordu Oyunları-2022" yarışlarının təntənəli açılış mərasimi olub



Rusiya Federasiyasının Moskva şəhərində "Beynəlxalq Ordu Oyunları-2022" yarışlarının təntənəli açılış mərasimi keçirilib.

Müdafiə Nazirliyindən AZƏRTAC-a bildirilib ki, Patriot Parkında keçirilən mərasimdə Rusiya Federasiyasının Prezidenti Vladimir Putin, müdafiə naziri ordu generalı Sergey Şoyqu, iştirakçı ölkələrin nümayəndə heyətləri, hərbi attaşelər, kütləvi informasiya vasitələrinin nümayəndələri və digər qonaqlar iştirak ediblər.

Təntənəli mərasimdə yarışlar açıq elan edilib, "Beynəlxalq Ordu Oyunları"nın himni səsləndirilib.

Qeyd edək ki, "Beynəlxalq Ordu Oyunları-2022" yarışları 12 ölkənin ərazisində keçirilir. Beynəlxalq müsabiqələrdə 34 ölkədən olan hərbi qulluqçular fərdi və komanda şəklində mübarizə aparacaqlar.





# "Dəniz kuboku" beynəlxalq müsabiqəsinin açılış mərasimi keçirilib

Avqustun 15-də Hərbi Dəniz Qüvvələrinin nəzarət-buraxılış məntəqəsində "Beynəlxalq Ordu Oyunları-2022" yarışları çərçivəsində ölkəmizdə təşkil olunan "Dəniz kuboku" müsabiqəsinin açılış mərasimi keçirilib.






AZƏRTAC xəbər verir ki, tədbirdə hərbçilər, ölkəmizdə akkreditə olunmuş xarici ölkələrin əməkdaşları, həmçinin yerli və xarici kütləvi informasiya vasitələrinin və ictimaiyyətin nümayəndələri iştirak ediblər.

Açılış mərasimində əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Mərasimdə çıxış edən Müdafiə Nazirliyi Şəxsi Heyət Baş İdarəsinin Kadrlar İdarəsinin rəisi polkovnik Elçin Xəlilov qonaqları salamlayaraq nazirliyin adından yarış iştirakçılarına uğurlar arzulayıb. Qeyd edilib ki, yarışın məqsədi iştirakçı ölkələrin silahlı qüvvələrinin şəxsi heyətinin döyüş hazırlığının artırılması, təcrübə mübadiləsi və hərbi qulluqçular arasında dostluq münasibətlərinin yaranmasıdır. Çıxış edən Rusiya Hərbi Dəniz Qüvvələrinin nümayəndəsi də "Dəniz kuboku" yarışlarında iştirak edən ölkələrə uğurlar arzulayıb.

Hərbi Dəniz Qüvvələrinin komandanı kontr-admiral Sübhan Bəkirov bildirib ki, artıq beşinci ildir təşkil edilən müsabiqə bu il də şəffaf şəraitdə, yüksək səviyyədə və dostluq çərçivəsində keçirilir. Ölkəmiz müsabiqəyə böyük qələbə əhvali-ruhiyyəsi ilə hazırlaşıb.

Prezident İlham Əliyevin orduya göstərdiyi diqqət və qayğısı nəticəsində ölkəmizdə bu cür yarışların keçirilməsinin əhəmiyyətini vurğulayan Sübhan Bəkirov deyib ki, bu yarışlar iştirakçı ölkələr arasında həmrəyliyi daha da gücləndirir: "Bu cür tədbirlər Xəzər dənizində sülh, qonşuluq münasibətlərinin inkişafına təkan verir".

Sübhan Bəkirov keçirilən yarışların müxtəlif ölkələrin hərbi dənizçiləri arasında qarşılıqlı təcrübə mübadiləsinin aparılmasında, onların peşəkarlaşmasında mühüm əhəmiyyətə malik olduğunu vurğulayaraq komandalara uğurlar arzulayıb.

Daha sonra açılış mərasimi bədii hissə ilə davam edib.

Qeyd edək ki, avqustun 27-dək davam edəcək "Dəniz kuboku" yarışlarında Azərbaycan, İran, Qazaxıstan Hərbi Dəniz qüvvələrinin, eləcə də Rusiya Dəniz Donanmasının gəmi heyətləri iştirak edirlər.

"Dəniz kuboku" müsabiqəsi üç mərhələdə keçirilir. Bunlar artilleriya atəşlərinin yerinə yetirilməsi, gəminin dayanıqlılığı uğrunda mübarizə, xilasetmə və dəniz hazırlığıdır.

# "Tank biatlonu" müsabiqəsinin açılış mərasimi olub

Rusiya Federasiyasının Moskva şəhərinin Alabino hərbi poliqonunda "Beynəlxalq Ordu Oyunları-2022" yarışları çərçivəsində keçirilən "Tank biatlonu" müsabiqəsinin açılış mərasimi keçirilib.

Müdafiə Nazirliyindən AZƏRTAC-a bildirilib ki, açılış mərasimindən sonra komandamızın ikinci heyəti birinci divizionda Monqolustan komandası ilə mübarizə aparıb.

"Fərdi sürmə" mərhələsində güclərini sınayan tankçılarımız müsabiqənin növbəti mərhələsində də uğurla çıxış ediblər.






# Qafqazın siyasi güc mərkəzi

## İlham Əliyevin uğurlu diplomatiyası, qlobal təşəbbüsləri dünyanın Azərbaycana olan marağını getdikcə artırır

İkinci Qarabağ müharibəsindən şanlı zəfərlə çıxan Azərbaycan inkişaf etmiş ölkələr kimi gələcək yüksəliş strategiyasını dövrün tələblərinə uyğun müəyyən edir. Dünya artıq Azərbaycanı regionun lideri, qlobal layihələr həyata keçirən, islahatlar aparan, əməkdaşlığa və qlobal enerji təhlükəsizliyinə əhəmiyyətli töhfələr verən etibarlı tərəfdaş ölkə kimi qəbul edir. Bu bir həqiqətdir ki, son 19 ildə Prezident İlham Əliyevin yürütdüyü uğurlu siyasətlə Azərbaycan iqtisadi və siyasi müstəqilliyə, müzəffər orduya sahib olan qüdrətli dövlətə çevrilib.

Hazırda dünyanı təhdid edən qlobal iqtisadi böhran fonunda Azərbaycanın dayanıqlı inkişafı məhz İlham Əliyevin həyata keçirdiyi mütərəqqi islahatlar sayəsində əldə edilib. Uzaqgörən lider kimi qəbul etdiyi qərarlarla, reallaşdırdığı inkişaf strategiyası ilə Azərbaycanın gücünə güc qatan İlham Əliyevin bütün dövrlərdə müəyyənləşdirdiyi sosial-iqtisadi inkişaf strategiyası ölkəmizin istənilən böhrandan az itki ilə çıxmasını təmin edib.

Bəllidir ki, dünya dövlətləri son 3 ildə həm qlobal iqlim dəyişikliyinin, həm də pandemiyanın yaratdığı fəsadlara qarşı mübarizə aparırlar. Bu da təbii ki, ölkələrin iqtisadi durumuna təsirsiz ötüşmür. Azərbaycan da dünyanın bir parçası olaraq qlobal pandemiyaya qarşı mübarizə tədbirləri həyata keçirib və bu gün də bu proses davam etməkdədir. Ancaq bunun fonunda ölkə iqtisadiyyatında artımın qeydə alınması bir daha onu deməyə əsas verir ki, İlham Əliyevin düşünülmüş və mütərəqqi islahatları müsbət nəticələr verib. Yəni Azərbaycan artıq öz iqtisadi müstəqilliyini təmin edib. Bu da əminlik yaradır ki, dövlət bundan sonra da öz gücünə, öz hesabına qarşıya qoyulan hədəfləri uğurla reallaşdıra biləcək.

Hazırda Azərbaycan regionun ən sürətlə inkişaf edən qüdrətli dövlətidir. Ötən illər ərzində respublikamızın bölgələrinin inkişafı istiqamətində həyata keçirilən layihələrin uğurlu göstəriciləri, yaranan mənzərə hər bir ölkə üçün nümunə ola bilər. Ölkəmizin maliyyə imkanlarının artması isə onu deməyə əsas verir ki, qarşıdakı dövrdə də sosial-iqtisadi inkişafa yönəlik istənilən layihə uğurla reallaşdırılacaq, dövlət proqramları icra olunacaq.

Əlbəttə ki, iqtisadi müstəqillik siyasi müstəqilliyin əsasıdır. İlham Əliyevin yürütdüyü tam müstəqil siyasətin nəticəsidir ki, hazırda Azərbaycan beynəlxalq və regional əməkdaşlığa sanballı töhfələr verir, ölkəmizin təşəbbüsü və iştirakı ilə mühüm qlobal layihələr icra edilir. Artan iqtisadi güc və beynəlxalq nüfuz Azərbaycana Cənubi Qafqazın və ətraf regionların iqtisadiyyatlarının mənzərəsini dəyişdirməyə qadir olan iri layihələrin təşəbbüskarı kimi çıxış etmək imkanı yaradıb.

Müstəqilliyinin bərpasından ötən 30 ildə əldə etdiyi nailiyyətlərlə Cənubi Qafqazın lider dövləti statusuna sahiblənən Azərbaycan bu gün həm də sivilizasiyalar arasında mənəvi körpü rolunu oynamağa layiqli şəkildə davam edir. Demokratik inkişaf yolunu seçmiş Azərbaycanın səsi dünyanın ən mötəbər kürsülərindən eşidilir.

İlham Əliyevin uğurlu diplomatik gedişləri nəticəsində Azərbaycan tam müstəqil xarici siyasət yürüdən ölkə kimi tanınmaqla yanaşı, bərabərhüquqlu və qarşılıqlı əməkdaşlıq əsasında xoşniyyətli tərəfdaşlar üçün unikal məkana çevrilib. Bu siyasətin təntənəsi Azərbaycanın ictimai-siyasi sabitliyində, iqtisadi gücündə, sosial rifahında, güclü ordusunda və uğurlu xarici siyasətində də özünü göstərir. Bu həqiqət hər il Azərbaycanda keçirilən beynəlxalq konfranslarda, forumlarda, sərgilərdə və digər tədbirlərdə özünü bir daha təsdiqləyir.

Ümumiyyətlə, İlham Əliyevin həyata keçirdiyi tam müstəqil siyasət Azərbaycana bir çox dividendlər qazandırıb. Ölkəmiz etibarlı tərəfdaş olmaqla yanaşı, həm də regionun güc və beyin mərkəzi statusuna sahiblənib.

Son 20 ildə Azərbaycan sürətli və hərtərəfli inkişafla bərabər, həm də beynəlxalq tədbirlərin, forum və konfransların, sərgilərin keçirildiyi məkan kimi də tanınıb. Dünyanın elə bir mötəbər təşkilatı tapılmaz ki, Bakıda onun toplantısı keçirilməsin. Bu da əlbəttə ki, Azərbaycanın beynəlxalq miqyasda siyasi çəkisinin yüksəlişinə xidmət edən amillərdən biridir.

2022-ci ilin ötən dövrü ərzində ölkəmizdə keçirilən beynəlxalq tədbirlərə diqqət etsək, görərik ki, Azərbaycan həm dünyanı təhdid edən qlobal problemlərin həlli istiqamətində təşəbbüskar kimi çıxış edir, həm də beyin mərkəzlərinin, tanınmış siyasətçilərin, iqtisadçıların iştirakı ilə keçirilən beynəlxalq forumlara, konfranslara yüksək səviyyədə evsahibliyi edir.

IX Bakı Qlobal Forumu, 24 dövlətin 449 şirkətinə qucaq açan XV Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı sərgisi, Şuşada V "Xarıbülbül" Beynəlxalq Folklor Festivalı, 26-29 may tarixlərində "TEKNOFEST Azərbaycan" Aerokosmik və Texnologiya Festivalı, 27-ci Beynəlxalq Xəzər Neft və Qaz, 10-cu Yubiley Xəzər Beynəlxalq Energetika və Bərpaolunan Enerji sərgiləri, Bakı Enerji Forumu və "Formula-1" Azərbaycan Qran-prisi bir daha təsdiq edir ki, Azərbaycan 2022-ci ilin ötən dövrü ərzində də bir sıra beynəlxalq toplantılara, idman və mədəniyyət tədbirlərinə yüksək səviyyədə evsahibliyi edib və bu gün də öz təcrübəsini bölüşməkdədir.

Bu toplantılar ilk növbədə Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması işinə əhəmiyyətli töhfələr verir. Tədbirlərin əksəriyyətində iştirak etmək üçün Azərbaycana səfər edən əcnəbi qonaqlar işğaldan azad edilmiş torpaqlarımıza da səfər edərək erməni vandalizmi ilə əyani tanış olublar.

Bütün bunlar həmçinin Azərbaycanın beynəlxalq rolunu xeyli dərəcədə gücləndirir və ölkəmizin dünyanın üzləşdiyi problemlərin müzakirə olunduğu müxtəlif yüksəksəviyyəli görüşlərə evsahibliyi edərək ən mütərəqqi əməkdaşlıq platformasına çevrildiyini təsdiqləyir.

Hazırda dünyanın geosiyasi və iqtisadi gündəminin əsas mövzularından birini təşkil edən Avropanın enerji təhlükəsizliyinin təminatında Azərbaycan əsas açar rolunu oynayan dövlətlərdən biri kimi qəbul olunmaqdadır. Çünki Azərbaycanın iştirakı olmadan bölgədə və geniş mənada yerləşdiyimiz qitədə enerji təhlükəsizliyi məsələləri tam şəkildə həll oluna bilməz. Yəni Azərbaycan qlobal enerji təhlükəsizliyinin əsas təminatçılarındandır. Bunu tərəfdaşlıq etdiyimiz böyük ölkələr də bölüşür.

Azərbaycanın qitədə enerji təhlükəsizliyinin təminatında mühüm rol oynaması ölkə sərhədlərindən kənarda, özü də ən yüksək səviyyələrdə etiraf olunmaqdadır. Məhz elə buna görədir ki, dünyanın hətta ən qüdrətli dövlətləri belə enerji sahəsində Azərbaycanla əməkdaşlığa xüsusi önəm verməklə yanaşı, bundan, sözün əsl mənasında, qürur hissi keçirdiklərini də açıq bildirirlər.

Bu prosesi dəyərləndirən İlham Əliyev deyir ki, Azərbaycanın başlatdığı və Avropa İttifaqının, o cümlədən tərəfdaşlarımızın dəstəklədiyi enerji layihələri Avropanın enerji xəritəsini tamamilə dəyişir. Çünki Azərbaycan tərəfdaşları ilə birgə Xəzər dənizini Qara dəniz və Aralıq dənizi ilə birləşdirən neft kəməri çəkməklə yeni rekordlara imza atıb. Prezidentin söylədiyi kimi, 3500 kilometr uzunluğu olan "Cənub qaz dəhlizi" boru kəməri sistemləri inteqrasiya edilib və bununla təbii qazımız Avropa qitəsinə çatdırılır. Bu dəhliz tam gücü ilə işləyir. Bütün seqmentlər istismar olunur. Bu əməkdaşlığın artıq müsbət faydası görülür.

Əminliklə söyləyə bilərik ki, İlham Əliyevin enerji diplomatiyası və bu istiqamətdəki bütün layihələri ölkənin iqtisadi potensialını gücləndirir, eləcə də neft-qaz sektorundan əldə edilən gəlirlərin iqtisadiyyatın qeyri-neft sektoruna yönəldilməsinə real imkan yaradır.

Bütün bunlar onu göstərir ki, Azərbaycan ölkənin milli maraqlarına tam cavab verən, həmçinin beynəlxalq sferada mövqeyini və əlaqələrini əhəmiyyətli dərəcədə gücləndirən müstəqil siyasət həyata keçirir. Məhz bu siyasətin nəticəsi olaraq Azərbaycanla əməkdaşlığa daim xüsusi maraq göstərilir və ölkəmizin mövqeyi ilə daha çox hesablaşırlar.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Prezidentin xəbərdarlığı Ermənistan üçün ciddi siqnal olmalıdır

## Əks təqdirdə ermənilər aqibətlərinin acınacaqlı olacağını yaxşı başa düşürlər



*Əvvəli 1-ci səh.*

### Bu fürsətləri qaçırmaq Ermənistana böyük faciələr yaşada bilər

Milli Məclisin İnsan hüquqları komitəsinin deputatı, Böyük Quruluş Partiyasının rəhbəri Fazil Mustafa bildirir ki, əslində, Prezident İlham Əliyev tərəfindən Ermənistana bir yol xəritəsi ilə bağlı açıqlamalar verilib. Bu açıqlamalarda Ermənistanın sülh prosesini uzatmağının birinci növbədə özlərinə ziyan vuracağı vurğulanıb: "Ermənistan verdiyi vədləri yerinə yetirmək iqtidarında deyil və yaxud da arzusunda deyil. Prezident xüsusi qeyd etdi ki, Ermənistan bunun əvəzini daha ağır ödəyə bilər".

Deputatın fikrincə, indiki fürsətləri qaçırmaq Ermənistana böyük faciələr yaşada bilər. Dövlət başçısı qətiyyətli mövqeyini torpaqların imzalanan sənədə uyğun olaraq boşaldılmasını təmin etmə məsələsində də göstərdi. Verilən vaxt ərzində boşaldılmasa, Azərbaycan Ordusu yeni zərbə ilə ərazilərimizdəki qanunsuz hərbi birləşmələri darmadağın edəcək. Buna heç kim qarışa bilməz, çünki bura Azərbaycan torpaqlarıdır və suveren torpaqlarımızda öz hüquqlarımızı gerçəkləşdiririk. Bundan başqa, ortada imzalanmış sənəd var və Ermənistanın burada yer alan şərtlərdən qaçmağa imkanı yoxdur. Belə bir vəziyyətdə Ermənistanın sülh müqaviləsi ilə bağlı təklifləri gözardı etməsi problem yaradır.

Fazil Mustafa hesab edir ki, indi Ermənistanda hökumət daxili vəziyyətlə əlaqədar bir sıra addımların atılmasına risk etmir. Bu ölkədə populist çıxışlar müxalifətin səsini azaltmaq üçün səsləndirilir: "Reallıqda deyirlər ki, proseslər getdikcə Ermənistan üçün daha böyük itkilərə səbəb ola bilər. Ona görə həm danışıqların intensivləşməsi, həm verilən vədlərin yerinə yetirilməsi, həm də torpaqların boşaldılması vacibdir".

Deputat deyir ki, hələ ermənilər gələcək sülhə əsas verəcək davranış sərgiləmirlər. Onlar evləri, meşələri yandırıb çıxırlarsa, bu onu göstərir ki, başqa islah yolu yoxdur, ancaq onları "dəmir yumruq"la başa salmaq mümkündür. İdeoloji cəhətdən zəhərləndiklərinə görə, mədəni çağırış və tələblər onların beyinlərinə çatmır. Prezident Ermənistanı gözləyən təhlükələr barədə bir daha onlara xatırlatma etdi. Bildirdi ki, bunun cavabını Azərbaycan istənilən variantlarda verməyə hazırdır, burada uduzan tərəf yenə Ermənistan olacaq.

### Xankəndi ilə Ermənistan arasında əlaqənin necə qurulacağı erməniləri ciddi düşündürməlidir

Ekspertlər, siyasətçilər də hesab edirlər ki, ermənilər "Qisas" əməliyyatından dərs çıxarmalı, separatçı dəstələri Azərbaycan torpaqlarından geri çəkməli, tezliklə sülh müqaviləsinin bağlanması istiqamətində addımlar atmalıdır. Əks təqdirdə yenə uduzan Ermənistan olacaq.

Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin üzvü Elşad Mirbəşiroğlu qəzetimizə açıqlamasında deyib ki, Azərbaycan tərəfi Ermənistana hər zaman münasibətlərin normallaşdırılması, yekun sülh sazişinin bağlanması ilə bağlı çağırışlar edib.

2020-ci ilin 10 noyabr Bəyanatında yer alan şərtlərə əməl olunmasının vacibliyi həm Azərbaycan, həm də Rusiya tərəfindən qeyd olunub. Lakin Ermənistan tərəfi bu günə qədər əldə olunmuş razılaşmanın şərtlərinə əməl etməyib. Görünən odur ki, erməni silahlı birləşmələrinin Qarabağdan çıxarılması tələbindən Ermənistan yayınıb. Ermənistanın baş naziri N.Paşinyan çıxışında bildirir ki, orada Ermənistan ordusunun əsgərləri deyil, müqavilə əsasında xidmət edənlərdir. Paşinyan dolayısıyla etiraf edir ki, Azərbaycan ərazisində qanunsuz erməni silahlılarını məhz Ermənistan saxlayır. Çünki Ermənistan büdcəsinin xərclər maddələrindən biri "Qarabağla" bağlıdır, yəni oradakı silahlılar Ermənistan büdcəsindən maliyyələşirlər.

Elşad Mirbəşiroğlu deyir ki, Ermənistan təxribatçı mövqeyində qalmaqla bütün hallarda özünü oda atır. 2020-ci ilin sentyabrına qədər Azərbaycan Ermənistana şans verirdi. Münaqişəni dinc yolla tənzimləməyə çalışırdı, amma Ermənistan Azərbaycanın bu mövqeyini düzgün qiymətləndirə bilmədi. Nəticədə 2020-ci ilin payızında olduqca ağır məğlubiyyətə uğradı. Ermənistan ordusu darmadağın edildi. Lakin kapitulyasiya aktı imzalayan Ermənistan təxribatçı mövqeyində qalmaqda davam edir. Elə bu təxribat nəticəsində Azərbaycan Silahlı Qüvvələrinin bir əsgəri şəhid olub: "Azərbaycan cavab olaraq "Qisas" əməliyyatı keçirdi. Ermənistanı növbəti dəfə məğlubiyyətə uğratdı, bir neçə strateji yüksəkliyi nəzarətə götürdü. Bununla postmünaqişə dövründə hərbi mövqelərimizi əhəmiyyətli dərəcədə gücləndirdik".

Elşad Mirbəşiroğlu qeyd edir ki, Azərbaycan Prezidenti Laçın şəhərindən, Zabux və Sus kəndlərindən ermənilərin çıxmasını son dəfə sərt şəkildə tələb edib. Ermənistan reallığa uyğun davranmalıdır: "Erməni separatçıları bizim ərazilərdə təxribatlar törədərək ümid edirdilər ki, indiki şəraitdə Azərbaycan genişmiqyaslı cavab tədbirləri görməyəcək. Amma Azərbaycan artıq iki dəfə - biri Fərrux yüksəkliyi ətrafında, ikincisi, Laçında törədilmiş təxribatla əlaqədar cavab tədbirləri həyata keçirtdi. Bununla da ermənilərin gözləntiləri puç oldu. Artıq dərk edirlər ki, heç bir manevr imkanları mövcud deyil".

Deputatın sözlərinə görə, avqustun 5-nə qədər Laçın şəhəri, Zabux və Sus kəndləri boşaldılmalı idi. Lakin ermənilərin Azərbaycana müraciəti əsasında onlara avqustun axırına kimi vaxt verilib. Bu ayın sonuna kimi ermənilər Laçın şəhəri və ətraf kəndləri boşaltmalıdırlar.

Ermənilərin hərbi cinayətlərindən söz açan deputat bildirir ki, Prezident İlham Əliyev bu ölkəyə sərt şəkildə xəbərdarlq etdi. Ermənistan da görür ki, proseslər Azərbaycanın maraqlarına uyğun davam edir. Azərbaycan özü üçün elə bir şərait formalaşdırıb ki, hər hansı məsələni dərhal həll etmək imkanındadır: "Artıq bizim üçün zamana ehtiyac yoxdur. Azərbaycan avqustun axrına kimi vaxt verib, ondan sonra Laçın dəhlizini tam nəzarətə götürəcək. Belə olan halda Xankəndi ilə Ermənistan arasında əlaqənin necə qurulacağı erməniləri ciddi düşündürməlidir.

Azərbaycan Prezidentinin sərt xəbərdarlığı ermənilər üçün ciddi siqnal olmalıdır. Prezident İlham Əliyevin xəbərdarlığına məhəl qoymayacaqları halda artıq aqibətlərinin acınacaqlı olacağı qaçılmazdır".

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Ötən həftə 685 hektardan çox ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə icra olunan minatəmizləmə əməliyyatları barədə həftəlik məlumatı açıqlayıb.

ANAMA-dan AZƏRTAC-a bildiriblər ki, avqustun 8-dən 13-dək Tərtər, Ağdam, Şuşa, Xocavənd, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilan rayonlarının ərazilərində aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 134, tank əleyhinə 193 mina və 39 ədəd partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib.

Həftə ərzində 685 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.



# Qədimiliklə müasirliyin görüş yeri - Basqal



Əvvəli 1-ci səh.

Həsən xan bağı ilə Əmrəki dağının ətəyində məskən salan qədim "Qalalar" ərazisinə qədər uzanan "Yeni Basqal " füsunkar gözəlliyi ilə adamı heyran edir. Basqal çayının sol sahili boyunca uzanan yamacda salınmış qədim Basqal isə plan və memarlıq quruluşu baxımından qədimiliyi, özünəməxsusluğu və gözəlliyi ilə seçilən Lahıca bənzəyir. Daş döşəmələrdən salınmış qədim Basqalın baş küçəsi Bazar meydanından Kəlfərəc yolunadək uzanır.

Ta keçmiş zamanlardan ipəkçilik, dəmirçilik əhalinin əsas məşğuliyyəti olub. Burada hazırlanan kəlağayılar XII-XIII əsrlərdə Qafqazda, Şərq və Avropa ölkələrində böyük maraqla qarşılanıb.

Basqallı xanımların əl işləri, toxuduqları kəlağayılar yaşa və zövqə uyğun olaraq müxtəlif rənglərə boyanırdı. "Heyratı", "Hələbi", "Gülvəngi", "Saçaqlı", "Sumağı", "Ağzəmin", "Bağdadı" və sair adlı əlvan kəlağayılar əsas yer tuturdu. Hazırda bu sıraya "Basqalı" və "Yeddi rəng" adlı kəlağayılar da əlavə edilib. Basqalda hazırlanan kəlağayıların naxışlanmasında müxtəlif qəliblərdən istifadə olunurdu. Həmin qədim qəliblər bu gün də qalmaqdadır.

Azərbaycan mədəniyyətinin növlərindən olan "Azərbaycan kəlağayısı sənəti" Basqal kəlağayısının timsalında 2014-cü ildə UNESCO-nun Qeyri-Maddi, Mədəni İrsinin Reprezentativ siyahısına daxil edilmişdir.

2500-3000 illik tarixi olan qəsəbənin adı Basqal toponimi çoxmənalı sözdür. Təmiz türk sözü olduğu və "qala qur", "qala ucalt", "baş qala" mənasını ifadə edir. Bu ulu ad qədim türkdilli Basil tayfa birləşməsinin də ünvanını yada salır.

Milli-mənəvi dəyərlərin qorunub yaşadılmasına və gələcək nəsillərə çatdırılmasına xüsusi diqqət verən Prezident İlham Əliyev 3 oktyabr 2018-ci ildə "Basqal Dövlət Tarix Mədəniyyət Qoruğu haqqında" sərəncam imzaladı. Dövlət başçısının bu sərəncamı Basqalın sosial-iqtisadi inkişafına və tarixi-mədəni irsinin layiqli səviyyədə mühafizəsinə, təbliğinə, bərpa və konservasiyasına göstərilən dövlət qayğısının təzahürüdür.

Prezident İlham Əliyevin bu sərəncamından sonra Basqalın yeni həyatı başladı. Basqal yolu, eləcə də yolu Basqaldan keçən Zeyvə, Tağlabiyan, Kəlfərəc, Mücü, Kürdüvan, Xan kəndi, Sulut və onun ətrafındakı kəndlərin yolları ilk dəfə asfalt örtük gördü. Basqal qəsəbəsi daxilində eyni vaxtda bir sıra iritutumlu infrastruktur layihələrinin icrasına başlanıldı. Bir sözlə, Basqal bütün tarixi boyu heç vaxt olmadığı qədər intensiv bir tikinti, quruculuq, konservasiya və abadlıq meydanına çevrildi. Məqsəd də, vəzifə də ecazkar təbiəti və Orta əsr şəhər mədəniyyəti elementlərini özündə birləşdirən bu tarixi məkanı həm də beynəlxalq standartlara cavab verən cəlbedici turistik məkana çevirməkdən ibarətdir.

Xatırladaq ki, Basqalın şəhər tipli yaşayış məntəqəsi olduğu, daha dəqiq desək, şəhər mədəniyyəti elementlərinə malik olduğu yazılı qaynaqlarda, həmçinin yerli əhalinin yaddaşında müvafiq izlər qoymuşdur. Məsələn, XIX əsrin sonlarında orada olmuş rus şərhçisi Konstantin Lebedevin "Qafqaz" qəzetinin 1882-ci il 310-cu sayında dərc edilmiş qeydlərində göstərilir: "Basqal şəhərinə qəza mərkəzi Şamaxıdan Rusiya atlarından kiçik, lakin zərif və iti yerişli kəhər atla gəldik. Basqal şəhərinə axşam vaxtı yetişdik. Neft lampaları evlərin eyvanını, həyətlərini kifayət qədər işıqlandırırdı. Melodik səs ruhumuzu oxşadı. Çarvadar Məşədi Əzim kişi bu səsin məscid minarəsindən gələn azan səsi olduğunu mənə başa saldı".

Basqalda hər birinin özünəməxsus tarixi olan neçə-neçə ictimai bina, məhəllə və bulaq var. Dəmirçibazar, Qoşabulaq, Qəlibgah, Xarabiyan, Qalabaşı, Dərəməhəllə... Hər birinin nəinki daşında, divarında, hətta adında belə böyük və incə mənalar uyuyan həmin məhəllələr bu gün də Basqalın qədim tarixinə şahidlik edir. Əslində, Basqalda hər bina, hər döngə özü bir tarixdir. Basqalın Orta əsrlərə aid əksər tikililəri yonulmuş çay daşı, qaya daşı və palçıq məhluldan istifadə edilməklə inşa olunub. Yalnız bəzi yerlərdə, özü də nisbətən son dövrə aid tikililərdə az miqdarda bişmiş kərpicdən istifadə olunub. Həm də bişmiş kərpicdən inşaat materialı kimi daha çox binaların giriş hissəsinə aid tağların inşasında istifadə olunub.

Dövlət Turizm Agentliyinin sifarişi əsasında AMEA-nın Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun arxeoloji ekspedisiyası tərəfindən Basqalın tarixinin elmi cəhətdən araşdırılması istiqamətində önəmli işlər görülmüşdür. Qalabaşı ərazisində şimal qala divarları və Basqal hamamının kürəbəndinin qismən öyrənilməsi, Şeyx Məhəmməd məscidi adı ilə tanınan Basqal məscidi və onun ətrafında, habelə məscidin yan otağı və həyətində arxeoloji tədqiqatlar nəticəsində minillik bir dövrü əhatə edən zəngin mədəni təbəqə - yaşayış qatı olduğu müəyyənləşdirilmişdir. Basqal yaşayış yerinin mədəni təbəqəsi ümumi qalınlığı 2-2.5 metr olan 6 mühüm tikinti qatından ibarət formalaşmışdır. Bəzi nöqtələrdə isə tikinti qatlarının sayı hətta 7-8-ə çatır. Basqalda X əsrdən başlayaraq 1000 il ərzində təqribən hər 120-150 ildən bir mövcud tikililər dövriyyədən çıxmış və onların üzərində yeni tikililər meydana gəlmişdir. Bu isə o deməkdir ki, arxeoloji cəhətdən öyrənilən həmin ərazi bütün dövrlərdə sıx yaşayış sahəsi olmuşdur. Tikinti qatlarının çoxluğu, əksər hallarda bir-biri ilə kəsişdiyi, demək olar ki, boş nöqtələrin olması buna sübutdur.

Şeyx Məhəmməd məscidi daxilində tədqiqatlar davam etdirilərkən orada, həmçinin dəmirçi emalatxanası, hovuz, saxsı borulardan və daş kürəbəndlərdən ibarət su və kanalizasiya xətlərinin qalıqları da aşkar olunmuşdur. Hovuzun yanındakı ətrafı və içərisi daşla səliqəli döşənmiş yerin isə ibadət edən insanların dəstəmaz aldığı yer olduğu ehtimal edilir.

Məscidin yan otağında və həyətində tədqiqatlar davam etdirilərkən bir neçə yerdə həm əsaslı, həm də yardımçı bina qalıqları aşkar olunmuşdur. Həmin tikililərin XVI əsrə aid Şeyx Məhəmməd məscidi ilə əlaqəli olduğu daha inandırıcıdır. Məscid həyətində aşkar olunmuş bina qalıqlarının isə daha çox məhz ehsan mərasimlərinin icra edildiyi yer olduğu bildirilir. Son illərin arxeoloji tədqiqatları Basqalın minillik tarixindən, mədəniyyətindən, sənət və məişət dünyasından xəbər verir.

Bu günlərdə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva İsmayıllı rayonunda "Basqal" Dövlət Tarix-Memarlıq Qoruğu ərazisində aparılan və icrası nəzərdə tutulan tikinti-bərpa işləri ilə tanış oldular. Səfər zamanı dövlət başçısı və xanımı Şeyx Məhəmməd məscidində, Bazar meydanında, Qalabaşı ərazisində görülən işlərin gedişi ilə maraqlandılar. Dövlət başçısı İlham Əliyevə və Birinci vitse-prezident Mehriban Əliyevaya məlumat verildi ki, aparılan fundamental arxeoloji tədqiqatlar nəticəsində tarixi Basqal qalasının divarlarının yeri müəyyən olunub, XVII əsrə aid edilən tarixi hamamın ətrafında Azərbaycanın ən qədim kanalizasiya sistemlərindən biri hesab olunan kürəbənd sisteminin işləmə prinsipi aşkara çıxarılıb. Şeyx Məhəmməd məscidinin dəqiq yaşı tam şəkildə təyin edilərək mədəni qatları haqqında ilk dəfə tədqiqat işləri aparılıb, çoxsaylı maddi-mədəniyyət nümunələri tapılaraq tədqiq edilib və qoruğun muzey fonduna təhvil verilib.

Eyni zamanda etnoqrafik və elmi-tarixi araşdırmalar nəticəsində Basqalın tarixi dərindən araşdırılaraq qoruğun elmi-inventar fondu hazırlanıb, əski əlifba ilə yazılmış dini, elmi və sosial həyatla bağlı minlərlə qiymətli əlyazma mətni meydana çıxarılaraq fonda təhvil verilib. Basqal və ətraf ərazilərin tarixi və mədəni irsi ilə birbaşa bağlı olan qeyri-maddi mədəni irs nümunələri toplanaraq qədim divarüstü yazılar, daş qəbirlər, müxtəlif kitabələr dərindən tədqiq edilib və dövlət mühafizəsinə götürülüb. Basqalda yaşayan əhalinin son iki yüz il ərzində məşğuliyyəti, sənətkarlıq nümunələrinin tarixi təkamülü üzə çıxarılıb.

Basqalın mərkəzi hesab olunan Orta əsrlər yol mədəniyyətinə xas pilləkənvari və daş döşəməli yolların, ənənəvi hasarların və qədim taxta qapı-darvazaların qorunub saxlanıldığı 8 tarixi məhəllənin birləşdiyi Bazar meydanının abadlaşdırılmasına xüsusi diqqət yetirilib.

Qoruğun mühüm tarixi abidələrindən biri hesab olunan Basqal hamamı maddi mədəniyyət nümunələrimizin qorunması məqsədilə dövlət nəzarətinə götürülüb, Bazar meydanında Hamam Muzeyi əsaslı şəkildə bərpa edilib. Muzeydə Azərbaycanda hamam mədəniyyətinin özəllikləri, inkişafı haqqında, eləcə də hamamla bağlı xalq adət və ənənələri, onun külxana adlanan döşəməaltı istilik sistemi haqqında maraqlı məlumatlar təqdim olunur.

Basqal inanclı insanların yurd yeri, vətənidir. Qəsəbədə aparılan tədqiqatlar nəticəsində 1854-cü ildə tikilən tarixi-memarlıq abidələrindən biri olan Hacı Bədəl məscidi, nəhəng gövdəsi və iri koğuşu ilə seçilən, dünyada əkilmə tarixi dəqiq bilinən yeganə ağac, 1563-cü ilə aid edilən, Basqal camaatı tərəfindən "Pir Çinar" adlandırılaraq müqəddəs hesab edilən çinar ağacı, XV əsrə aid olunan, 2020-ci ildə arxeoloji qazıntılar nəticəsində aşkara çıxarılıb tarixi üslubda yenidən təmir edilmiş "Pir çinar bulağı" və onlarla digər tarixi abidələr haqqında müfəssəl məlumatlar əldə edilib.

Basqalın qədim sənətkarlıq mərkəzlərindən olan 7 sənətkar emalatxanası da, magistral yoldan qoruğa qədər uzanan yol da yenidən qurulub. Qoruq ərazisində 2 küçədə qaz xətləri yerin altına salınıb, ərazidə olan rabitə xətləri yenilənib. Həmçinin Basqal qəsəbəsinin elektrik təchizatı sisteminin yenidən qurulması işləri aparılıb, su və kanalizasiya şəbəkəsinin bərpası üzrə işlər başa çatdırılıb. Bazar meydanı ərazisində köhnə yarımçıq tikililər sökülüb, qəsəbənin girişində avtomobil dayanacağı, turizm məlumat mərkəzi tikilib. Ərazidə abadlıq işləri aparılaraq yol və səkilər düzəldilib, Bazar meydanında qoruq üçün inzibati bina inşa olunub. Küçələr boyunca divarlar, döşəmələr, qapı və darvazalar bərpa edilərək tarixi mühitə uyğunlaşdırılıb və işıqlandırma işləri görülüb. Bir sözlə, ölkəmizin qədim yaşayış məskənlərindən biri olan Basqal gələn turistləri qarşılamağa tam hazırdır.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# Prezident qətiyyəti

## İlham ƏLİYEV: "Ərzaq təhlükəsizliyi məsələləri əminəm ki, Azərbaycanda maksimum dərəcədə təmin olunacaq"

Əvvəli 1-ci səh.

Çünki taxılın əsas ixracatçıları Rusiya və Ukraynadır. Ona görə də bu məsələdə böyük problemlər yaranmışdır. Ancaq ölkəmiz həmin sahədə problem yaşamır. Prezident bildirib ki, biz ənənəvi olaraq taxılı da, gübrəni də Rusiyadan alırıq. Rusiyalı tərəfdaşlarımızla əldə edilmiş razılaşmalar nəticəsində ölkəmizə istədiyimiz qədər həm gübrə, həm taxıl ixrac edilir və ediləcək. Gübrəyə gəldikdə, artıq özümüzdə də gübrə istehsal olunur. Karbamid gübrəsini hətta ixrac edirik. Digər gübrələr isə ölkəmizə kənardan gətirilir.

Yeri gəlmişkən qeyd edək ki, torpaqlarımız erməni işğalçılardan azad olunandan sonra Prezident dərhal vaxt itirmədən həmin yerlərdə əkin-biçinlə məşğul olmaq barədə göstəriş vermişdir. Bu il 50 min hektarda taxıl əkilmişdir və məhsul yığımı artıq yekunlaşır. Dövlət başçısı məhsuldarlığın aşağı olduğunu qeyd edərək demişdir: "Bu da təbiidir. Çünki uzun illər bu torpaqlar istifadəsiz qalmışdır, suvarma da yoxdur, dəmyə şəraitində taxıl yetişdirilir və birinci ildir ki, əkin aparılmışdır. Ona görə hektardan orta məhsuldarlıq təqribən 1 tondan aşağıdır. Ancaq əminəm ki, növbəti illərdə məhsuldarlıq daha da artacaq, əkin sahələri artacaq. Mən hesab edirəm ki, biz azad edilmiş torpaqlarda taxılçılıq üçün ən azı 100 min hektarı dövriyyəyə buraxmalıyıq və əlbəttə ki, bütün müasir aqrotexniki tədbirlərin görülməsi, o cümlədən suvarma məsələlərinin düzgün təşkil edilməsi şərtilə".

Xatırladaq ki, Qarabağdakı və Şərqi Zəngəzurdakı çaylarımız da 30 il erməni işğalında olmuşdu. Düşmənin bəd əməlləri bizi suyumuzdan da məhrum etmişdi. Tərtər çayının suyundan faktiki olaraq istifadə edə bilmirdik. Həkəri çayı, Bazar çayı və bir çox digər çaylar eyni taleyi yaşamışlar.

Lakin şübhə yoxdur ki, gələcəkdə Qarabağda və Şərqi Zəngəzurda yetişdiriləcək məhsullar ərzaq təhlükəsizliyinin təmin edilməsinə öz töhfələrini verəcək. Bunun üçün praktiki işlər aparılır. Torpaqlar minalardan təmizlənir. Növbəti illərdə əkin sahələrindən daha bol məhsul götürmək üçün suvarma layihələri, aqrotexniki tədbirlər həyata keçiriləcək, subsidiyalar işə böyük dərəcədə kömək edəcək. Çünki azad edilmiş ərazilərimizdə kənd təsərrüfatının - həm bitkiçiliyin, həm də heyvandarlığın inkişafı üçün münbit iqlim və təbii şərait var. Dövlət bundan maksimum dərəcədə səmərəli şəkildə istifadə etməyi qarşıya məqsəd qoyub. Nəzərə alsaq ki, hələ özümüzü tam, yəni 100 faiz əsas ərzaq məhsulları ilə təmin edə bilmirik, bunun necə böyük əhəmiyyət daşıdığı daha aydın olar.

İndi bu istiqamətdə ardıcıl işlər aparılır. Əvvəllər ölkə üçün ənənəvi olmayan, yəni sovetlər dönəmində az inkişaf edən heyvandarlıq sahəsinə diqqət getdikcə artırılır. Nəticə odur ki, bu gün özümüzü ət məhsulları ilə 90, quş əti ilə 80, süd və süd məhsulları ilə 85 faiz səviyyəsində təmin edirik. Dövlət başçısı növbəti 3-5 il ərzində bu sahədə 100 faiz səviyyəsinə çıxacağımıza əmin olduğunu bildirir. Baxmayaraq ki, əhali çoxalması ilə tələbat da artır. Başqa sözlə, ərzaq təhlükəsizliyi ilə bağlı məsələlər daim gündəmdədir.

Azad edilmiş torpaqlarda kənd təsərrüfatının müasir, planlı şəkildə ixtisaslaşma əsasında təşkili həmçinin oraya qayıdacaq insanların əkin-biçinlə məşğul olmasına, dolanışıqlarını özlərinin təmin etməsinə, yaxşı qazanc götürməsinə imkan verəcək. Eyni zamanda ölkəmizin ərzaqla təminatı və ixrac imkanları da xeyli artacaq.

İlk nəticələr artıq görünür. İkinci ildir çobanlar qoyun sürüləri ilə heyvandarlığın inkişafı üçün böyük perspektivləri olan Kəlbəcər, Laçın, Zəngilan rayonlarına göndərilib. Kəlbəcər və Laçında arıçılar öz təsərrüfatlarını quraraq fəaliyyətə başlayıblar və artıq şirin nemət istehsal edirlər. Bu rayonlar tezliklə bal ixracatçıları sırasına qoşulacaq. Füzuli, Ağdam, Cəbrayıl, Qubadlı rayonlarında isə taxılçılıq, eləcə də üzümçülük, meyvəçilik, fındıqçılıq sahələri inkişaf etdiriləcək. Görülən kompleks tədbirlər nəticəsində ən böyük məhsuldarlıq məhz Qarabağ və Şərqi Zəngəzur torpaqlarında olacaq.

Göründüyü kimi, kənd təsərrüfatının inkişafı ilə bağlı əvvəlki illərdə qəbul edilmiş qərarlar artıq öz bəhrəsini verir. O ki, qaldı ərzaq təhlükəsizliyi ilə bağlı dünyada yaranmış narahatlığa, dövlət başçısı qətiyyətli şəkildə vurğuladı ki, Azərbaycan da bu istiqamətdə fəal iş aparır. Görülmüş və görüləcək işlər nəticəsində Cənubi Qafqazın lider dövləti bu sahədə də özünü təmin etmiş ölkəyə çevriləcək: "Ərzaq təhlükəsizliyi məsələləri, əminəm ki, Azərbaycanda maksimum dərəcədə təmin olunacaq".

*Flora SADIQLI,*
*"Azərbaycan"*



# 815 güzəştli mənzil satışa çıxarılır

## MİDA-nın ötən seçimlərdə nəticələri ləğv olunan evlərini də vətəndaşlar ala biləcəklər



2016-cı ildən Prezident İlham Əliyevin fərmanı ilə "MİDA" Məhdud Məsuliyyətli Cəmiyyətinin sərəncamında olan mənzillərin vətəndaşlara güzəştli şərtlərlə satılması davam etdirilir. Vətəndaşların sosial və məişət şəraitlərinin yaxşılaşdırılmasında, həmçinin mənzillə təminatında xüsusi əhəmiyyət kəsb edən bu layihə çərçivəsində aztəminatlı ailələrin güzəştli mənzillərə sahib olmaq imkanı yaranır. "Elektron hökumət" portalı üzərindən "Güzəştli mənzil" sistemi ilə vətəndaşlar elektron qaydada mənzilləri seçib ala bilirlər.

### 442 mənzil üçün seçimlər ləğv edilmişdir

Xatırladaq ki, martın 30-da MİDA-nın Yasamal Yaşayış Kompleksində yerləşən 442 mənzilində seçimlər edilərkən bir sıra şübhəli hallar aşkarlanmışdı. Müəyyən edilmişdir ki, bəzi istifadəçilər tərəfindən sistemi sürətləndirmək və olduqca qısa zaman kəsiyində prosesləri tamamlamaq üçün qeyri-qanuni yollara əl atılıb.

Əlbir olan bir qrup şəxs "Güzəştli mənzil" informasiya sisteminə daxil olaraq onlara müraciət edənlərin güzəştli şərtlərlə mənzil almaları üçün xüsusi proqram təminatlarından yararlanaraq qanunsuz müdaxilələr ediblər. Bu üsulla seçimlər zamanı 6-10 saniyə ərzində mənzillərin satışı başa çatıb.

Dövlət Təhlükəsizlik Xidmətinin apardığı araşdırmalardan sonra məlum olmuşdur ki, 60 faizdən çox, yəni 300 mənzilin satışı qeyri-qanuni yollarla həyata keçirilib. Məhz bu səbəblə də bütün seçim prosesinin nəticələri ləğv edilmişdi. Bu işdə təqsirləndirilən şəxslər Cinayət Məcəlləsinin 273.3.1 və 273.3.2-ci maddələrində nəzərdə tutulan cinayət əməllərini törətməkdə şübhəli bilinərək məsuliyyətə cəlb edilmişdirlər.

Hüquqi proseslər başa çatdıqdan sonra Mənzil İnşaatı Dövlət Agentliyindən Yasamal Yaşayış Kompleksinin ikinci mərhələsində satışa çıxarılan 442 mənzilin yenidən seçimlərinin həyata keçiriləcəyi haqqında məlumat verilmişdi.

### Satış 15 sentyabrdan başlayacaq

Beləliklə, Yasamal rayonu, Xarici dairəvi yolu "6" ünvanında yerləşən MİDA Yasamal Yaşayış Kompleksinin ikinci mərhələsi üzrə ötən seçimdəki mənzillərlə birlikdə ümumilikdə 815 güzəştli mənzil satışa çıxarılır.

Agentliyin yaydığı məlumatda qeyd edilir ki, mənzillərin satışı 15 sentyabr 2022-ci il saat 11:00-da başlayaraq 22 sentyabr 2022-ci il saat 11:00-a qədər davam edəcək. "Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin sərəncamında olan mənzilləri vətəndaşların güzəştlə əldə etməsi Qaydası"na uyğun olaraq gözləmə qaydasında mənzillərin seçimi 19 sentyabr 2022-ci il saat 11:00-da başlayacaq və 22 sentyabr 2022-ci il saat 11:00-dək davam edəcəkdir.

Məlumat üçün bildirək ki, agentliyin təqdim etdiyi mənzillərin satış qiyməti həmin ərazidəki orta bazar qiymətindən aşağıdır. Vətəndaşlar mənzilləri həm öz vəsaiti hesabına ödəniş üsulu ilə, həm də ipoteka kreditindən istifadə etməklə əldə edə bilərlər. "Azərbaycan İpoteka Fondu" Açıq Səhmdar Cəmiyyətinin güzəştli ipoteka krediti vasitəsilə 3 ildən 30 ilədək müddətdə aylıq ödəmək imkanı yaradılır.

Yalnız "Güzəştli mənzil" sistemində elektron kabinetə sahib olmuş vətəndaşlar mənzil almaq hüququna malikdirlər. Elektron kabinetə sahib olmuş bütün vətəndaşlar qeydiyyat tarixindən və sıra nömrəsindən asılı olmayaraq mənzillərin seçimində bərabər hüquqludurlar. Mənzillər sahiblərinə tam təmirli, mətbəx mebeli, kombi isitmə sistemi (kombi cihazı daxil olmaqla), su, qaz və elektrik sayğacları ilə təchiz olunmuş vəziyyətdə təhvil verilir.

*Aydan XƏLİLOVA,*
*"Azərbaycan"*

# REGİONLAR



## Şəhid zabitin ordeni ailəsinə təqdim edilib

44 günlük Vətən müharibəsində qubalı gənclər də igidliklə döyüşmüşlər. Onlardan biri də şəhid leytenant Bayramov Ruslan Azər oğludur.

Quba Rayon İcra Hakimiyyətində keçirilən tədbirdə bildirilib ki, şəhid baş leytenant Ruslan Bayramov torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə qəhrəmanlıq göstərmiş, bu yolda canını belə əsirgəməmişdir. R.Bayramov Prezidentin 2022-ci il 25 iyun tarixli sərəncamı ilə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif olunmuşdur. Ordeni şəhidin ailəsinə Quba RİH-nin başçısı Z.Əliyev təqdim etmişdir.

***Akif ƏLİYEV, "Azərbaycan"***

## Qobustanda noxud yığımı başa çatıb

Qobustanda noxud biçini başa çatıb, sahələrdən 91 ton məhsul götürülüb.

Rayon Dövlət Aqrar İnkişaf Mərkəzindən AZƏRTAC-a bildirilib ki, cari ilin məhsulu üçün 125 hektarda noxud yetişdirilib. Əkin sahələri ötən ildəkindən 8 hektar çox olub. Noxud 6 ərazidə - Qobustan şəhər, Təklə, Sündü, Xilmilli, Cəyirli və Cəmcəmli ərazi icra nümayəndəliklərində və Qobustan Bölgə Təcrübə stansiyasında əkilmişdi. İstehsal edilən məhsul əvvəlki illə müqayisədə 5 ton çoxdur. Bu il havaların əlverişsiz keçməsinə baxmayaraq, hər hektarda məhsuldarlıq da artıb və 7,5 sentner olub. Yığılan məhsulun bir qismi birbaşa yerli bazarlara çıxarılıb.

## Lənkəranda daha bir dağ kəndinin içməli su təchizatı yaxşılaşıb



Yaponiya hökumətinin "Ot kökləri və İnsan Təhlükəsizliyi Qrant Yardımı Proqramı" çərçivəsində həyata keçirilmiş "Lənkəranın dağlıq Bəliton kəndində içməli su təchizatının inşası" layihəsinin başa çatması ilə əlaqədar açılış mərasimi keçirilib.

Mərasimdə Yaponiyanın Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Cuniçi Vada, Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov, rayonunun icra strukturlarının nümayəndələri və kənd sakinləri iştirak ediblər. Tədbiri giriş sözü ilə açan ŞİH-nin başçısı T.Qaraşov Azərbaycanla Yaponiya arasında fəal siyasi dialoqun mövcudluğuna diqqət çəkərək bildirib ki, Azərbaycan iqtisadi sahədə yapon iş adamları üçün olduqca cəlbedicidir. Dövlət başçısı İlham Əliyevin yapon şirkətlərinin müxtəlif sosial layihələrə göstərdikləri könüllü dəstəyin yüksək qiymətləndirilməsi ilə bağlı səsləndirdiyi fikirləri xatırladan T.Qaraşov Yaponiya hökumətinə nəcib təşəbbüsünə görə Bəliton kənd sakinləri adından minnətdarlığını ifadə edib.

Səfir Cuniçi Vada səmimi və qonaqpərvər qarşılandığına görə rayon rəhbərliyinə və kənd sakinlərinə minnətdarlığını ifadə edib. Bildirib ki, Yaponiya ilə Azərbaycan arasında narahatlıq doğuracaq heç bir siyasi məsələ yoxdur və iqtisadi sahədə də qarşılıqlı əməkdaşlıq yüksələn xətlə inkişaf etməkdədir. Səfir Yaponiya hökumətinin Azərbaycanla müxtəlif sahələrdə qarşılıqlı etimad mühitinin qurulmasında, əməkdaşlıq səviyyəsinin daha da inkişafında, sosial infrastruktur layihələrinin həyata keçirilməsində maraqlı olduğunu bildirib. O, yapon şirkətlərinin Azərbaycanda sağlam rəqabətli biznez mühiti çərçivəsində fəaliyyəti üçün yaradılan şəraitə görə Prezident İlham Əliyevə təşəkkürünü ifadə edərək belə layihələrin bundan sonra da davamlı olacağını vurğulayıb, Bəliton kəndinin əhalisini bu əlamətdar hadisə münasibətilə təbrik edib.

Sonda T.Qaraşov və C.Vada rəsmi açılışı bildirən qırmızı lenti kəsiblər.

***Ağaddin BABAYEV,*** *Lənkəran*

## Salyan Sort Sınaq Məntəqəsi 90 ilə yaxındır sınaqlardan üzüağ çıxır

Hələ qədimdən toxum məsələsi əkinçilərin ən yaralı yeri olub. Hətta əkin-biçin adamlarının yolları düşdükləri yerlərdən maraqlandıqları bitkilərin toxumlarını gizli şəkildə də olsa vətənlərinə gətirdikləri barədə söz-söhbətlər uzun zamanlardan bəri ağızlarda dolaşıb.

Bir neçə il əvvəl Cəlilabadda olarkən Əməkdar aqronom Mikayıl Xubalıyevin toxumla bağlı bildiyi bir məsəli xatırlatmaq istərdik: "Əfqanıstanda elə yemiş sortu var ki, onu dilim-dilim doğradıqdan sonra bazara çıxarırlar. Ona görə belə edirlər ki, həmin yemişin toxumu əldən-ələ keçib yayılmasın".

Toxuma, şitilə olan münasibət bu gün də öz əhəmiyyətini itirməmişdir. Müxtəlif ölkələrə gedən adamların xoşlarına gələn gülün-çiçəyin toxumunu və ya şitilini alıb gətirdiklərini hər birimiz görmüşük. Bəli, toxum mühüm şərtdir. Atalar nahaq yerə deməyiblər: "Nə əkərsən, onu da biçərsən". Daha keyfiyyətli toxum əkmək və daha yüksək məhsul əldə etmək bu gün əkinçilikdə başlıca şərtlərdən biri, hətta birincisidir.

Bu sahədə ölkəmizdə müəyyən işlər görülmüşdür və həmin istiqamətdə tədbirlər davam etdirilir. O cümlədən ölkənin müxtəlif bölgələrində sözügedən sahə üzrə qurumlar fəaliyyət göstərir. Onlardan biri də Kənd Təsərrüfatı Nazirliyinin Salyan rayonundakı Sort Sınaq Məntəqəsidir. Təsərrüfatın rəhbəri təcrübəli kənd təsərrüfatı işçisi Balaeyvaz Hüseynovdur. Deyir ki, başçılıq etdiyi məntəqə 1934-cü ildə yaradılıb: "Burada sınaqlardan keçən, necə deyərlər, həyata vəsiqə alan bitki sortları, əsasən, Aran zonası rayonlarında əkilib-becərilir. Alimlərimiz tərəfindən alınan və xarici ölkələrdən gətirilən sortlar üç il dalbadal əkilərək, onların xüsusiyyətləri, yəni çıxış verməsi, boyu, xəstəliklərə qarşı davamlılığı, məhsuldarlığı, yerli şəraitə uyğunlaşması və s. keyfiyyətləri ətraflı öyrənildikdən sonra rayonlardakı xüsusi təsərrüfatlara göndərilir. Orada həmin sortun toxumu çoxaldılır".

Cari ildə məntəqədə 21 pambıq sortu əkilmişdir. Onlardan 14-ü yerli, qalan 7-si xarici sortlardır. 4 min 200 kvadratmetrdə əkilən yerli sortlardan 11-i Gəncə Pambıqçılıq İnstitutuna, 3-ü Genetika İnstitutuna məxsusdur. Sortların hər birinin adı kodlaşdırılmışdır. Bu isə öz növbəsində baş verə biləcək neqativ halların qarşısını almağa xidmət edir.

Məntəqənin direktoru yerli pambıq sortlarımızın üstünlüklərindən danışarkən vurğuladı ki, "Gəncə-160", "Gəncə-164", "Ağdaş-3" sortları yaxşılaşdırılmışdır. Bunlardan başqa, "Salyani", "Gəncə-195", "Gəncə-185", "Gəncə-200" pambıq sortları xarici sortlarla müqayisədə daha tez yetişən və məhsuldardır: "Lakin lif çıxımı xarici sortlarda daha yüksək olduğundan şirkətlər onların əkilib-becərilməsinə üstünlük verirlər. Yerli sortların toxumlarının yetişdirilməsi, demək olar ki, şirkətləri maraqlandırmır. Xarici toxumlar isə bahadır. Onların bir kiloqramı 5 manatdırsa, yerli sortdan olan çiyidin bir kiloqramı 30 - 50 qəpik arasında dəyişir. Torpaq mülkiyyətçilərinin, fermerlərin çoxu həm bu səbəbdən, həm də yerli pambıq növlərinin daha tezyetişən olmasına görə özümüzünkünü əkmək arzusundadırlar".

Məntəqədə yalnız pambıq deyil, başqa bitkilərin toxumları da sınaqdan keçirilir. Taxıl, qarğıdalı, soya, yonca və başqaları bu sıradandır. 2008-2009-cu illərdə burada 20 hektarda Hollandiyadan gətirilmiş soya, 2015-ci ildə 5 hektarda Almaniyadan gətirilmiş qarğıdalı toxumu əkilmişdir. Alman mütəxəssisləri əkin, becərmə və məhsul yığımı dövründə təsərrüfatda olmuşlar. Nəticə bu adamları razı salmışdır. Hər hektardan 150 sentnerdən artıq məhsul əldə edilmişdir.



Onu da qeyd edək ki, təyinatından asılı olmayaraq, hər bir təşkilat və müəssisənin üzərinə düşən vəzifənin öhdəsindən gəlməsi həm də maddi-texniki bazadan və kollektiv üçün yaxşı şəraitdən asılıdır. Bu sarıdan məntəqənin heç bir problemi yoxdur. Onun üçün yeni inzibati bina, anbarlar tikilmişdir. Məntəqənin həyətindəki texniki vasitələr üçün xüsusi sahə, 300 tonluq su anbarı, yanğına qarşı qurğu, işıqlandırma, habelə kamera sistemi, gözətçi otağı da təzədir. Yeri gəlmişkən qeyd edək ki, hazırda məntəqənin 18 adda 20 texnikası var.

İdarənin kollektivi avqust ayının pambıqçılıqda mühüm dövr olduğunu nəzərə alaraq indi daha gərgin işləyir. Hazırda onlar sahədə 7-ci kompleks becərmə aparırlar. Bu isə məhsulun daha bol olacağının başlıca təminatıdır.

***Seyran CAVADOV, "Azərbaycan"***

## "Xurşidbanu Natəvan" Ağdamda olmuşdur



Əməkdar incəsənət xadimi Fəxriyə xanım Xələfova "Xurşidbanu Natəvan" filmində baş rola çəkilmişdir.

Filmin çəkilişləri Ağdam rayonundakı XVIII əsrə aid Şahbulaq qalasında aparılmışdır. Ağdama səfəri zamanı Fəxriyə xanım Xələfova rayon icra hakimiyyətinin başçısı Vaqif Həsənovla birlikdə Quzanlı qəsəbəsindəki Heydər Əliyev Mərkəzində olmuş, Ağdam Şahbulaq qalasının 1980-ci ilin eskiz layihəsini mərkəzə hədiyyə etmişdir. Layihənin müzakirəsi zamanı Fəxriyə xanım Qarabağ müsəlman arxitekturasına aid olan günbəzin işğal dövründə erməni vandalları tərəfindən silinərək özlərinə məxsus formaya salındığını bildirmişdir. O, qeyd etmişdir ki, çox yaxın vaxtlarda Prezidentin tapşırığına əsasən, Şahbulaq qalası təmir olunaraq əvvəlki formasına qaytarılacaq.

***Lazım QULİYEV, "Azərbaycan"***

## Qusarda məişət tullantılarının çeşidlənməsi və idarə edilməsi müəssisəsi yaradılıb

Qusar rayonunda məişət tullantılarının idarə edilməsi və təbiətə vurulan zərərlərin azaldılması məqsədilə "QusarEcoPark" investisiya layihəsi çərçivəsində, tullantıların konveyer-nəzarət üsulu ilə çeşidlənməsi müəssisəsi yaradılıb.

AZƏRTAC xəbər verir ki, müəssisədə gündəlik Qusar rayonundan çıxan 25-30 kubmetr məişət tullantısı çeşidlənərək, faydalı hissəsi təkrar istehsala qaytarılacaq. Çeşidlənmiş faydalı hissələrin bir qismi (pet butulkalar, plastik, tullantı kağızları, metal qırıntıları, şüşələr və s.) Bakı şəhərində fəaliyyət göstərən istehsal müəssisələrinə (Balaxanı Sənaye Parkına), digər qismi isə Sumqayıt şəhərində yerləşən müəssisələrə təkrar emal üçün göndəriləcək. Müəssisədə gələcəkdə emalın təşkili və müxtəlif növ məhsulların istehsalı üçün avadanlıqların alınması nəzərdə tutulub.

Müəssisə ilə tanışlıq zamanı bildirilib ki, dünyada, həmçinin ölkəmizdə tullantılardan səmərəli istifadə etməklə təkrar istehsalına xüsusi önəm verilir. Həm də bu layihə sosial-iqtisadi məqsəd daşıdığı üçün yeni iş yerlərinin yaradılmasına, ekologiyaya mənfi təsirlərin aradan qaldırılmasına istiqamətlənib.

# Bitkilər də canlıdır

### Onları da xəstəliklərdən qorumaq lazımdır

Son dövrlər dünya üzrə kənd təsərrüfatında məhsuldarlıq xeyli yüksəlib. Səbəb isə bu sahədə elm və texnologiyanın son nailiyyətlərindən geniş istifadə edilməsidir. Elmin nailiyyətlərindən istifadə edərək aqrar sektorda iqlim dəyişikliyi ilə bağlı quraqlığa və şaxtaya dözümlü məhsul növlərinin yetişdirilməsinə də diqqət yetirilir.

Ölkələr əldə etdikləri yeni toxum növlərini yerli şəraitə uyğunlaşdırmaq, həmçinin ziyanvericilərdən qorumaq üçün elmi təcrübələr və sınaqları davam etdirirlər. Məqsəd məhsul itkisini aradan qaldırmaqla daha çox istehsala nail olmaqdır.

Azərbaycan da son dövrlər xarici tərəfdaşlarla əməkdaşlığa üstünlük verir. Xüsusilə türkiyəli və israilli mütəxəssislərlə aqrar sektorda əməkdaşlıq daha yüksək səviyyədədir. Bununla yanaşı, xarici ölkələrdən keyfiyyətli, ziyanvericilərə qarşı təsirli dərman vasitələri də gətirilir. Onlardan istifadə müxtəlif yoluxucu xəstəliklərin yayılmasının qarşısını almaqla yanaşı, məhsul itkisini də aşağı salır. Bu baxımdan Üzümçülük və Şərabçılıq Elmi-Tədqiqat İnstitutunun (ÜŞETİ) Abşeron Təcrübə Təsərrüfatında xəstəlik və zərərvericilərə qarşı aparılan mübarizə tədbirləri diqqəti cəlb edir. İnstitutun İnteqrir mübarizə texnologiyaları laboratoriyası"nın işçiləri salxım yarpaqbükəni zərərvericisinin birinci, ikinci və üçüncü nəslinə qarşı mübarizədə feromon tələlərdən istifadə etməyi məsləhət görürlər.

Məlumdur ki, keyfiyyətli toxumdan istifadə yüksək məhsulun əldə edilməsində mühüm rol oynayır. Bununla belə, keyfiyyətli toxumun zərərvericilərdən qorunması da önəmli şərtdir. O üzdən kənd təsərrüfatı mütəxəssisləri vaxtaşırı fermerlərə bununla bağlı dəyərli tövsiyələr verirlər. Bildirirlər ki, kənd təsərrüfatı bitkilərinin toxumları infeksiya daşıyıcılarıdır. Toxumların həm daxilində, həm də səthində müxtəlif növ xəstəliklərin törədicilərinin sporları, göbələklərin mitselləri və s. olur. Belə toxumlarla səpin aparıldıqda ya bitki tamamilə məhv və ya alınmış cücərtilər zəif olur ki, bu da vegetasiya müddətində bitkilərin zəif olmasına və ya 30 faizədək məhsul itkisinə gətirib çıxarır. Odur ki, bol və keyfiyyətli məhsul



əldə etmək üçün toxumun dərmanlanması başlıca şərtlərdən biridir.

Mütəxəssislər deyirlər ki, dərmanlama toxumları həm daxildən, həm də torpaq patogenlərindən qoruyur. Cücərtilərin kök çürümə xəstəliyi, eləcə də torpaq zərərvericiləri ilə zədələnməsi azalır. Payızlıq əkinlərin soyuğa qarşı davamlılığı artır və ətraf mühitə mənfi təsirlər azalır. Bunun sayəsində məhsulun keyfiyyəti yaxşılaşır və dərmanlanmış toxumlardan vaxtında cücərtilər alınır. Bundan əlavə, cücərtilərin inkişafı ləngimir, güclü inkişaf etmiş bitkilər xəstəliklərə yoluxmur, stresə qarşı davamlı olur və nəticədə keyfiyyətli məhsul alınır. Həmçinin toxumların dərmanlanması sayəsində bitkilər güclü inkişaf etdiyindən məhsuldarlıq artır. Səpin üçün nəzərdə tutulan toxumluq materialın dərmanlanması fiziki, bioloji və kimyəvi üsullarla həyata keçirilir. Kimyəvi maddələrlə dərmanlama üstünlük təşkil edir və bu məqsədlə müxtəlif fungisidlərdən istifadə olunur.

Alimlərin fikrincə, kimyəvi dərmanlanma prosesi növündən, zərərli orqanizmin biologiyasından və toxumun xüsusiyyətlərindən asılı olaraq bitki mühafizəsi təcrübəsinə əsasən quru, yarım quru, yaş və nəmləndirmə yolu ilə aparılır. Məhsul sahədən yığılıb çeşidləndikdən, təmizləndikdən və müvafiq nəmliyə çatdırıldıqdan sonra dərhal dərmanlanmalıdır. Belə olduqda toxumun üzərində və ya daxilindəki xəstəlik törədiciləri inkişaf etməmiş məhv olur və toxum steril qalır. Toxumun vaxtında dərmanlanaraq anbarlara yığılması onun sağlam və itkisiz saxlanmasının başlıca şərtlərindəndir.

***Rüstəm KAMAL, "Azərbaycan"***

## Polşalı turistlər Qəbələyə səfərlərindən razı qalıblar

Qəbələ Dövlət Tarix-Bədii Qoruğu yerli turistlərlə yanaşı, ölkəmizə səfər edən xarici turistlərin də diqqətini özünə cəlb edir. Qoruğu ziyarət edənlərin arasında Avropa ölkələrindən gələn turistlərə də tez-tez rast gəlmək olar. Polşalı turistlər də qoruğa səfərlərindən razı qalıblar.

Bu barədə AZƏRTAC-a qoruğun direktoru Zahir Kərimov məlumat verib. Bildirib ki, polşalı qonaqlar əvvəlcə Qəbələ Arxeoloji Mərkəzində sərgilənən arxeoloji materiallarla tanış olublar. Onlara mərkəzin yaradılması və bu sahədə SEBA (Seul-Bakı) Azərbaycan-Koreya Mədəniyyət Mübadiləsi Assosiasiyasının gördüyü işlər, sərgi salonundakı tarixi əhəmiyyətə malik tapıntılar barədə ətraflı məlumat verilib.

Polşalı turistlər, həmçinin qoruğun tarixi məkanlarından olan Səlbir və Qala ərazilərində aparılmış arxeoloji qazıntı sahələri ilə də tanış olublar. Əcnəbi qonaqlara Qəbələ Arxeoloji Ekspedisiyasının burada apardığı arxeoloji qazıntılar, yerli və xarici arxeoloqlar tərəfindən aşkar olunan tapıntılar barədə ətraflı məlumat verilib, onları maraqlandıran suallar cavablandırılıb.

Polşalı turistlər Qəbələ Dövlət Tarix-Bədii Qoruğundan xoş təəssüratlarla ayrılıblar.






# 2022-ci il "Şuşa ili"dir

# Vaqif - özü və sözü

Xalqların mədəniyyət salnaməsində elə şəxsiyyətlər var ki, düşünürsən, əgər beləleri dünyaya gəlib, yaşayıb-yaratmasaydılar, tarix səhifəsində böyük bir yer boş görünərdi. Azərbaycanın zəngin ədəbi mühitində görkəmli rol oynayan belə şəxsiyyətlərdən biri də Molla Pənah Vaqifdir. Bulaq suyu kimi dupduru, şirin şeirləri ilə ana dilimizin inkişafında müstəsna xidmətləri olan böyük şair, Qarabağ xanı İbrahimxəlil xan Cavanşirin baş vəziri Vaqifin yaradıcılığı Azərbaycan ədəbiyyatında xüsusi bir mərhələni təşkil edir.

Böyük şair öz ənənələri ilə seçilən ədəbi məktəb yaratmış ölməz sənətkardır. O, əhəmiyyətini əsrlərdən bəri qoruyub saxlayan bənzərsiz poeziya nümunələri meydana gətirməklə milli ədəbiyyatın yeni istiqamətdə inkişafına təkan vermişdir. Azərbaycan şeiri Vaqifin sayəsində tarixinin növbəti mərhələsinə qədəm qoymuşdur. Onun klassik bədii fikir salnaməmizin parlaq səhifələrindən birini təşkil edən irsi müasir dövrdə də insanların əxlaqi-mənəvi kamilləşməsinə xidmət göstərir. Azərbaycan tarixinə həmçinin siyasi xadim kimi daxil olan Vaqif taleyüklü məsələlərin həllində müdriklik və uzaqgörənlik nümayiş etdirmişdir.

## Qarabağ xanının vəziri

Vaqifin anadan olduğu il dəqiq məlum deyil. Bir çox məlumatlarda şairin doğulduğu tarix kimi 1717-ci il götürülür. Ümumi qənaətlərə görə, Vaqif Qazaxın indiki Yuxarı Salahlı kəndində dünyaya gəlmişdir. Atası Mehdi ağa, anası Ağqız xanım uşaq yaşlarından onu mədrəsəyə göndərmişdilər. Burada dövrünün tanınmış alimi və müəllimi Şəfi Əfəndidən dərs almışdı. Gərgin zəhməti hesabına ərəb və fars dillərinə mükəmməl yiyələnmişdi. Eyni zamanda astronomiya, riyaziyyat, musiqi və poetika üzrə elmlərə də vaqif olmuşdu. Erkən yaşlarından şeirlər yazan şairə sonradan Vaqif təxəllüsünün verilməsi bəlkə də elə onun bir çox sahələrdə dərin biliklərə bələdliyindən irəli gəlirdi.

Mədrəsə təhsilini başa vurandan sonra Qazaxda müəllimliklə məşğul olduğundan el arasında Molla Pənah kimi tanınırdı. Şair 42 yaşına qədər doğulduğu yurdda yaşayıb fəaliyyət göstərmişdi. Sonra tale onu Şuşaya gətirib çıxarmışdı.

XVIII əsrin 50-ci illərinin sonlarında Qazax mahalında və qonşu Gürcüstan sərhədlərində feodal münaqişələri ara vermirdi. Bu münaqişələr nəticəsində 1759-cu ildə Qazax kəndlərindən onlarla ailə Qarabağ xanlığına köçürüldü. Vaqifin ailəsi də əvvəlcə Cavanşir mahalının Tərtərbasar kəndində yerləşdi. Vaqif bu kənddə məktəb açıb müəllimlik fəaliyyətinə davam etməyə başladı. Bir müddətdən sonra o, Qarabağ xanlığının mərkəzi Şuşa şəhərinə köçdü. Saatlı məhəlləsində öz məktəbini yaratdı.

Onun Saatlı məhəlləsindəki məktəbinin və özünün müəllim, alim kimi şöhrəti tezliklə bütün Şuşaya yayılır. O dövrdə Şuşanın ziyalı mühiti artıq formalaşmışdı. Şəhərdə bir çox alimlər, müəllimlər, sənət adamları yaşayıb yaradırdılar. Vaqif onlarla dostluq münasibəti qurmuşdu. Molla Pənahın sözü-sorağı tezliklə Qarabağ xanı İbrahimxəlil xan Cavanşirə də çatır. O, Vaqifi saraya dəvət edir, onunla xeyli söhbətləşir. Söhbət zamanı Vaqifin astronomiya biliklərinə əsaslanaraq ay tutulması və zəlzələ barədə verdiyi məlumatlar xanı heyrətləndirir. Biliklərini yüksək qiymətləndirərək, onu xanlığın rəhbərliyinə cəlb edir. Molla Pənah Vaqif İbrahimxəlil xanın sarayında əvvəlcə eşikağası - müasir dillə desək, xarici işlər naziri, sonra isə baş vəzir olur. O, ömrünün sonuna qədər bu vəzifəni yerinə yetirir.

Həmin dövrün saray xadimi və tarixçilərindən Mirzə Camal Cavanşir Qarabaği Vaqifin ağıllı, təcrübəli vəzir kimi böyük rəğbət qazandığını yazır. İbrahimxəlil xan Vaqifin dərin zəkasına həm inanır, həm də heyran qalırdı. Dövlət idarəçiliyində, daxili və xarici siyasətdə onun tövsiyələrini, məsləhətlərini həmişə nəzərə alırdı.

Vaqifin Qarabağ xanlığında vəzir olduğu vaxtlar tarixin ən mürəkkəb dövrlərindən idi. 1747-ci ildə Nadir şah Əfşarın öldürülməsindən sonra Azərbaycanda müstəqil xanlıqlar təşəkkül tapmışdı. Amma bu xanlıqlar qonşudakı böyük dövlətlərdən, eləcə də digər xanlıqlardan yönələn təhdidlər, aramsız feodal müharibələri qarşısında hər an müstəqilliyini itirmək təhlükəsi qarşısında idi. Qarabağ xanlığı üçün xüsusilə böyük təhlükəyə çevrilmiş Ağa Məhəmməd şah Qacar bu diyara yaxınlaşdıqca Vaqif təhlükəyə qarşı birləşməkdən ötrü İbrahimxəlil xan, II İrakli, İrəvan hakimi Məhəmməd xan və Talış hakimi Mir Mustafa xan arasında gedən diplomatik danışıqlarda fəal şəkildə iştirak edirdi.

1795-ci ildə Ağa Məhəmməd şahın qoşunları Araz çayını keçərək, Şuşa istiqamətində irəliləməyə başlayır. Şuşalılar Vaqifin başçılığı altında müdafiə olunmaq üçün hazırlıq işləri görürlər. Ağa Məhəmməd şah ağır müqavimətlə rastlaşsa da, qəzəbini boğub, top atəşlərini davam etdirməyə əmr verir. Şuşanın mühasirəsi 33 gün davam edir. Amma qalanın müdafiəçilərinin müqavimətini sarsıtmaq mümkün olmur. Şah məcbur olub, mühasirəni dayandıraraq, çar II İraklinin qoşunlarını darmadağın edib, Tiflisi xarabazara çevirir.

Həmin dövrdə Rusiyanın Qafqazdakı gücünü nəzərə alaraq Qarabağ xanlığının müdafiəsində bu imkandan istifadə etməkdən ötrü çariça II Yekaterina ilə yazışmalar aparılırdı. İbrahimxəlil xanın II Yekaterinaya bütün məktublarının mətnini Vaqif yazırdı. İmperator onun güclü yazı qabiliyyətini, məktublarının ədəbiliyini, zərifliyini 1784-cü ildə Q.A.Potyomkinə yazdığı risaləsində xüsusi qeyd etmişdi. Həmin məktubların müəllifinin kimliyi ilə maraqlanmağı ondan xahiş etmişdi. 1796-cı ildə qraf V.Zubovun başçılıq etdiyi rus qoşunları Şamaxıdan keçərək Qarabağ sərhədlərinə yaxınlaşanda İbrahimxəlil xan oğlu Əbülfət xanın başçılığı ilə onun yanına elçilər göndərir. Bu heyətdə Vaqif və tanınmış Qarabağ əmirlərinin oğlanları da vardı. Həmin görüşdə II Yekaterinanın adından İbrahimxəlil xana və Vaqifə qiymətli hədiyyələr verilir. Vaqifin hədiyyəsi bahalı daşqaşlarla bəzədilmiş əsa olur.

1796-cı ildə II Yekaterina vəfat edəndən sonra yeni imperator I Pavel Qafqazdakı rus qoşunlarını geri çağırmağa qərar verir. Ağa Məhəmməd şah isə ona qarşı çıxmış xanları cəzalandırmaqdan ötrü bunu fürsət bilir. Həmin il o, yenə hərbi yürüşə çıxıb Şuşaya yol alır. Böyük təmtəraqla Şuşa qalasına daxil olub, İbrahimxəlil xanın böyük oğlu Məhəmmədhəsən ağanın qalanın aşağı qapısının yaxınlığındakı evində yerləşir. Onda İbrahimxəlil xan ölüm təhlükəsindən xilas olmaq üçün Car-Balakənə getmişdi. Vaqif isə Şuşada qalmışdı. Ağa Məhəmməd şah İbrahimxəlil xanla birlikdə gedə bilməyən əyanların və xanın qohumlarının, dostlarının axtarılıb tapılması və həbs edilməsi əmrini verir. Həbsə alınanlar içərisində Molla Pənah da olur. Amma tale elə gətirir ki, həmin günlərdə Ağa Məhəmməd şah özü Şuşada yaxın adamlarının sui-qəsdi nəticəsində öldürülür. Qoşun geri çəkilir. İbrahimxəlil xanın kiçik qardaşı Mehrəli bəyin oğlu Məhəmməd bəy vəziyyətdən istifadə edib hakimiyyəti ələ keçirir və onu öz əlində saxlamaqdan ötrü əmisinin tərəfdarlarını qətlə yetirməyə başlayır. Əfsuslar olsun ki, Məhəmməd bəyin əmri ilə 1797-ci ildə Molla Pənah Vaqif və şairin oğlu Əli bəy də edam edilir.



Şuşa sakinləri Vaqifi böyük ehtiramla dəfn edirlər. Məzarının üstündə kiçik bir məqbərə tikirlər. Bura sonradan böyük bir ziyarətgaha çevrilir.

## Azərbaycan sözünə ucaldılmış abidə

Hazırda Vaqifin məzarı üzərindəki əzəmətli məqbərənin ideya müəllifi Ümummilli Lider Heydər Əliyevdir. Klassik ədəbiyyatı yüksək qiymətləndirən və Azərbaycan ədəbi irsinin göz bəbəyi kimi qorunmasına çalışan Ulu Öndər hələ sovet Azərbaycanına rəhbərliyi dövründə üç böyük şairimizin - Nizami Gəncəvinin, Molla Pənah Vaqifin və Hüseyn Cavidin məzarları üzərində möhtəşəm məqbərələri ucaltmışdı.

1967-ci ildə Şuşada olarkən Heydər Əliyev Vaqifin məzarını ziyarət etmək istəmiş, lakin qəbri tapılmamışdır. Onun göstərişi ilə məzar tapılmış və Heydər Əliyev yaxşı vəziyyətdə olmayan bu dağılmış məzarı ziyarət edərək Vaqifə ehtiramını bildirmişdi. Sonradan nitqlərinin birində gördüyü "bu məzarın Vaqifə layiq olmadığını" diqqətə çatdırmışdır. Azərbaycanın rəhbəri olduğu illərdə isə Heydər Əliyevin göstərişi ilə Vaqifin məzarı üzərində 1977-1981-ci illərdə abidə və türbə inşa olunmuş, 1982-ci ilin yanvar ayında Ulu Öndərin özünün də iştirakı ilə Molla Pənah Vaqifin məqbərəsinin təntənəli açılışı olmuşdur. 1992-ci ilin mayın 8-də Şuşanın işğalı zamanı bu məqbərə erməni vandalları tərəfindən dağıdılmış, 2020-ci ilin 8 noyabrında şanlı ordumuzun gücü ilə Şuşa azad edildikdən sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin göstərişi, Heydər Əliyev Fondunun yaxından iştirakı ilə məqbərə və Vaqifin bu məkandakı büstü əvvəlki görkəmində tam bərpa edilmişdir.

Xatırladaq ki, 1982-ci ildə Vaqifin məqbərəsinin açılışı ilə yanaşı, burada Ulu Öndər Heydər Əliyevin iştirakı ilə "Vaqif Poeziya Günləri" də keçirilmişdir. O vaxtdan belə bir mədəniyyət tədbiri xoş bir ənənəyə çevrilmişdir. Təxminən 30 illik fasilədən sonra 2021-ci ilin mayında Şuşada "Vaqif Poeziya Günləri" ənənəsi də bərpa olundu.

Vaqifin Şuşadakı məqbərəsi şairin timsalında Azərbaycan sözünə ucaldılmış abidədir. Onun ədəbi irsinə göstərilən ehtiram Azərbaycan milli ruhuna sevgidən gəlir. Onun şeirləri xalqımızın milli ruhunun tərcümanı, ana dilimizin saflığının, şirinliyinin, diriliyinin təcəssümüdür.

## İnsan gözəlliyinin tərənnümü

Ölümündən sonra Vaqifin şeirlərinin əlyazmaları da əfsus ki, məhv edilmişdir. Şairin "Divan"ı bu səbəbdən dövrümüzə qədər gəlib çatmamışdır. Buna baxmayaraq, aşıq poeziyasının milli yaddaşı hesabına onun bir sıra əsərləri qorunub saxlanılmışdır. Vaqifin şeirləri ilk dəfə 1856-cı ildə Teymurxanşurada (Dağıstanın indiki Buynaksk şəhəri) tarixçi-yazar Mirzə Yusif Qarabaği tərəfindən kitab halında çap olunub. Görkəmli mütəfəkkir Mirzə Fətəli Axundzadə isə şair haqqında materialları toplayaraq məşhur şərqşünas alim Adolf Berjeyə verib. O isə həmin materialları 1867-ci ildə Leypsiq şəhərində nəşr etdirib.

Vaqifin bütün yaradıcılıq nümunələri tam şəkildə bizə gəlib çatmasa da, əlimizdə olan şeirləri onun poetik irsinin, əsasən, qoşma, təcnis, qəzəl, müxəmməs, müstəzad və müəşşər janrları üzərində formalaşdığını göstərir. Bu mənada Vaqif poeziyası bir tərəfdən Azərbaycan folklorundan, digər tərəfdən klassik şeirimizdən qidalanır. Bununla belə, şairin klassik üslubda qələmə aldığı şeirlərin məzmunu, ifadə tərzi, ideya-bədii keyfiyyəti sələflərindən tamamilə fərqlidir. Tədqiqatçıların fikrincə, Vaqifin lirikası daha milli, daha xəlqi, realist, sadə və bir o qədər də nikbin ruhdadır. Bütün bunlar şairin yaradıcılığının əsas xarakterik xüsusiyyətləridir və bu onu Vaqifə qədərki klassik şairlərimizin çoxundan fərqləndirir. Hətta klassik poeziyanın bir çox ənənəvi janrlarının belə Vaqif poeziyasında xeyli dəyişdiyini, yeniləndiyini, sadələşdiyini, mahiyyətcə fərqli məzmun qazandığını göstərir. "Badi-səba, bir xəbər ver könlümə", "Namə gedər olsan yarın kuyinə", "Bayram oldu", "Gözlərin cəlladdır, baxışın yağı", "Durnalar", "Heyran olmuşam","Sevdiyim, ləblərin yaquta bənzər", "Pəri", "Görmədim", "Bax" və digər şeirləri Vaqif poeziyasının təkrarsız incilərindəndir.

Bir çox sələfləri kimi Vaqifin yaradıcılığında da məhəbbət mövzusu aparıcıdır. Gözəllərin vəsfi Vaqif lirikasının əsas motividir. Onların bədii portretini məharətlə yaratmış şair maraqlı etnoqrafik detallar, milli koloriti qabarıq şəkildə əks etdirən məqamlarla misralarını təkrarsız edib.

Tədqiqatçıların yazdıqlarına görə, insan gözəlliyinin və mərhəmətinin tərənnümü Vaqif üçün aktual idi. Əgər bir çox klassik şairlərimizdə bu mövzunun işlənməsi zamanı Şərq dünyasına xas ruhani ehkamlar əsas istinad mənbəyidirsə, Vaqif bütün bunları kənara qoyur. Poeziya üçün tamam yeni bir tip yaradır. Azərbaycan xalqının adət və ənənələrini, yerli xüsusiyyətlərini son dərəcə parlaq şəkildə şeirlərinə gətirir. Onun şeirlərində təsvir olunan insan fiziki və mənəvi cəhətdən kamil, harmonik inkişafda olan şəxsdir. Vaqif insanla bağlı arzusunu misralarında belə tərzdə ifadə edir və şeirləri ilə həyatsevərlik aşılayır. Bu mənada, şairin əksər şeirlərində böyük bir ruh yüksəkliyi var, həyata bağlılıq hiss olunur. Bir çox şeirlərində isə ictimai ədalətsizliyə və insanlar arasındakı bərabərsizliyə dərin nifrət hissi öz ifadəsini tapır. O, xalqdan qüvvət alaraq insanların güzəranını, ictimai motivləri, həyat və zəmanədən şikayətləri öz şeirlərinə gətirir.

## Mənəvi körpü

Ümumən Azərbaycan ədəbiyyatında realizmin Molla Pənah Vaqifdən başlandığını qeyd edən tədqiqatçılarımız bu mövqelərində tam haqlıdırlar. Vaqifin şeirlərində Azərbaycan realizminin ilkin pöhrələri görünür. Şair ölkə həyatının real peyzajını yaradır. Klassik ədəbiyyata qarşı inkarçı mövqe tutmayaraq xalq-aşıq şeiri üslubunu real həyatın ifadəsinə doğru istiqamətləndirir. Tamam yeni tipli şeir formalaşdırır və ədəbiyyat tariximizdə böyük bir mərhələnin qapılarını açır.

Vaqif yaradıcılığı ilə daha bir keçid prosesi də Azərbaycan ədəbi dilinin inkişafı tarixinin iki dövrü arasında baş verir. Belə ki, Azərbaycan ədəbi-bədii dilinin tarixində Məhəmməd Füzulidən sonra bütöv bir dövr yaradan məhz M.P.Vaqifdir. Görkəmli ədəbiyyatşünas alim Firudin bəy Köçərli bu xüsusda yazırdı ki, "milli şairlərimizdən onun kimi sadə və açıq lisanda və ana dilimizin şivəsində şeir və qəzəl yazan az olubdur. Müasirləri ona nəzirə yazmağa səy və təlaş ediblərsə də, onun kimi mühəssənatlı, gözəl və açıq kəlam söyləməkdə aciz qalıblar". Vaqifin dil və üslubunu özünəməxsus edən onun klassik üslubu, şifahi xalq yaradıcılığı və canlı dili bir araya gətirməsidir.

Vaqifin bir mühüm xidməti də folklor üslubunu klassik üslub materialı ilə zənginləşdirməsindədir. Çünki bu cəhət olmasaydı, folklor üslubu sonrakı dövrlər üçün normativə çevrilə və milli ədəbi dilin miqyasına yiyələnə bilməzdi. Bu mənada Vaqif dilinin tarixi keyfiyyətləri daha çox onun folklor janrlarında qələmə aldığı əsərlərində, o cümlədən qoşmalarında nəzərə çarpır. Bunu nəzərə alaraq F.Köçərli vaxtilə yazırdı: "Molla Pənahın gözəllik babında və dilbər vəsfində yazdığı qafiyələr bir o qədər lətif, açıq və aydın sözlər ilə nəzmə çəkilmiş kəlamlardır ki, nə qədər cövhərsiz və mərifətsiz adam onları eşitsə, mütəəssir və məsrur olar".

## Vaqifin şirin dili

Tədqiqatçılar yazırlar ki, Vaqif Azərbaycan ədəbi dilinin milli əsaslar üzərində təşkilində hərtərəfli iş görmüşdür. Məhz onun xidmətləri sayəsində folklor üslubunun klassik üslub üzərində üstünlüyü təmin edilmiş, ümumxalq dilinin mövqeyi yüksəlmişdir. Şairin milli ədəbiyyat qarşısındakı xidmətləri qədər milli ədəbi-bədii dil qarşısında da misilsiz xidmətləri var.

Vaqifin yaşayıb-yaratdığı dövrdə onunla yanaşı, bir çox sənətkarlar da ədəbi dilin milli əsaslar üzərində yenidən təşkili sahəsində bu və ya digər səviyyədə çalışmışlar. M.H.Müştaqın, şəkili Nəbinin, şirvanlı Salehin yaradıcılığı buna nümunədir. Həmin söz ustalarının dili də Vaqifin dil-üslub xüsusiyyətləri ilə oxşar əlamətlərə malikdir. Bu da onu göstərir ki, Vaqifin öz yaradıcılığı ilə apardığı dil islahatları təkcə özünün poeziyası çərçivəsində qapanıb qalmır. Ədəbiyyat və dil tariximizdə bütöv bir mərhələyə çevrilir. Bu mənada, Vaqif bizim üçün tarixin bütün dövrlərindən görünən, həm keçmişimizə, həm bu günümüzə, həm də gələcəyimizə aydın istiqamət verən möhtəşəm istinad mənbəyidir. Vaqifin yaradıcı irsi xalq olaraq bizim uğur hekayəmizdir.

Böyük şairin irsi azərbaycançılıq məfkurəsi işığında bu gün də daha dərindən araşdırılıb öyrənilir.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# "Şuşa-Qarabağın dünəni, bu günü, sabahı" adlı layihə davam edir



"Şuşa ili" ilə əlaqədar Azərbaycan İstiqlal Muzeyi tərəfindən həyata keçirilən "Şuşa-Qarabağın dünəni, bu günü, sabahı" adlı layihə davam edir.

AZƏRTAC xəbər verir ki, layihə çərçivəsində növbəti təqdimatlardan biri XX əsr Azərbaycan ədəbiyyatının görkəmli simalarından yazıçı-publisist, tərcüməçi, tədqiqatçı, naşir, redaktor, diplomat, ictimai-siyasi xadim, istiqlal mücahidi Ceyhun Hacıbəyliyə həsr olunub.

Ceyhun Əbdülhüseyn oğlu Hacıbəyli 1891-ci il fevral ayının 3-də Şuşada anadan olub. İlk təhsilini Şuşada ikisinifli rus-tatar məktəbində alıb, daha sonra isə təhsilini Bakıda real məktəbində davam etdirib. İlk mətbu hekayələrini "Proqres" qəzetinin 1907-ci il tarixli 5-ci nömrəsində dərc etdirib. 1908-ci ildə Əli bəy Hüseynzadənin müdir olduğu "Səadət" məktəbində dərs deyib.

1909-cu ilin yayında təhsilini davam etdirmək üçün Parisə gedib. Əvvəl Sorbonna Universitetində, sonra isə Ali Politexnik Elmlər Məktəbində təhsilini davam etdirib.

Mühacirətdən əvvəl (1919-cu ildən) "Kaspi", "Proqres", "Bakı", "Azərbaycan" və başqa qəzetlərdə yüzlərlə publisistik məqalə, hekayə dərc etdirən C. Hacıbəyli həmin dövrdə "İzvestiya" (Kaspidə), "İttihad" və "Azərbaycan" (rus dilində) qəzetlərinin redaktoru olub.

1919-cu ildə Azərbaycan nümayəndə heyətinin tərkibində Paris Sülh Konfransında iştirak edib. AXC işğal edildikdən sonra isə mühacirətdə fəaliyyət göstərib.

Ceyhun bəy Fransada yaşayarkən bir sıra mətbu orqanlarla əməkdaşlıq edib, Parisdə fransız dilində nəşr olunan "Qafqaz" jurnalının redaktoru olub.

Vəfatından üç gün əvvəl 1962-ci il oktyabrın 19-da Azərbaycan Xalq Cümhuriyyətinin sonuncu daxili işlər naziri Mustafa Vəkiloğluna məktub ünvanlayıb. Həmin məktubda o, Azərbaycanın İstiqlalı üçün mühacirlərin tək bayraq altında birləşmələrini və mübarizə aparmalarını arzulayıb.

Ceyhun Hacıbəyli 1962-ci il oktyabrın 22-də Parisdə dünyasını dəyişib.

* * *



"Şuşa ili" ilə əlaqədar Azərbaycan İstiqlal Muzeyi tərəfindən həyata keçirilən "Şuşa - Qarabağın dünəni, bu günü, sabahı" adlı layihə çərçivəsində təqdimatlardan biri Şəmsi Bədəl oğlu Bədəlbəyliyə həsr olunub.

AZƏRTAC xəbər verir ki, təqdimatda Xalq artistinin həyat və yaradıcılığı haqında məlumat verilir.

Şəmsi Bədəlbəyli 1911-ci il fevralın 23-də Şuşada ziyalı ailəsində doğulub. Orta məktəbi qurtarandan sonra o, 1923-cü ildən 1927-ci ilə qədər Bakı Pedaqoji Texnikumunda təhsil alıb. Tələbə vaxtı həvəskar aktyor kimi tamaşalarda oynayıb. 1927-ci ildə Şəmsi Azərbaycan Dövlət Konservatoriyasının xalq çalğı alətləri sinfinə daxil olub. Tələbə ola-ola Milli Dram Teatrının kiçik orkestrində tar çalıb. Yaş fərqlərinə baxmayaraq, burada dramaturq C. Cabbarlı, aktyor-rejissor İ.Hidayətzadə, rejissor-pedaqoq A.Tuqanovla dostluqları başlayıb. Onun sənət qabiliyyətini nəzərə alaraq Xalq Maarif Komissarlığı onu 1933-cü ildə Moskvaya təhsil və təcrübə keçməyə göndərir. Təhsilini başa vurub Bakıya qayıdan Şəmsi Bədəlbəyli Akademik Milli Dram Teatrının rejissor heyətinə işə götürülüb və 1941-ci ilə qədər bu kollektivdə çalışıb.

1941-1942-ci illərdə Ş.Bədəlbəyli sovet ordusunun hissələri tərkibində İrana müxbir kimi göndərilir. 1943-1949-cu illərdə Azərbaycan Dövlət Musiqili Komediya Teatrında bədii rəhbər, 1949-1956-cı illərdə M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının direktoru vəzifəsində çalışıb.

Onun ömrünün sonuna kimi geniş yaradıcılıq imkanları və potensialı var idi. 1957-ci ildə onu Türkmənistan Opera və Balet Teatrına dəvət edirlər və o, burada "Koroğlu" operasını tamaşaya qoyur. Keçmiş sovet məkanında Şəmsi Bədəlbəyli həqiqətən çox məşhur idi.

Görkəmli rejissor, musiqili teatr sənətimizin inkişafında, onun tərəqqi yolunda göstərdiyi böyük xidmətlərə görə 1943-cü ildə Azərbaycan Əməkdar artisti və 1964-cü ildə Xalq artisti fəxri adlarına layiq görülüb.

1987-ci il mayın 23-də vəfat edən bu tarixi şəxsiyyət İkinci fəxri xiyabanda dəfn olunub.



# Şuşanın Yuxarı Gövhər ağa məscidində erməni vandalizmini əks etdirən sənədli film çəkilir

Şuşanın Yuxarı Gövhər ağa məscidində erməni vandalizmini əks etdirən sənədli film çəkilir.

AZƏRTAC xəbər verir ki, Azərbaycanın İşğal Olunmuş Ərazilərindəki Tarix və Mədəniyyət Abidələrini Müdafiə Təşkilatı İctimai Birliyi, Azərbaycan Respublikası Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin elan etdiyi "Şuşa ili" xüsusi qrant müsabiqəsinin "İşğal dövründə Şuşanın maddi-mədəni irsinə vurulmuş zərərin araşdırılması" layihəsi çərçivəsində "Yuxarı Gövhər ağa məscidi: dünən və bu gün" adlı sənədli filmin çəkilişi üçün hazırlıq işlərinə başlanılıb.

Filmin çəkilməsində məqsəd son 30 ildə Azərbaycanın mədəni irsinə qarşı həyata keçirilən vandalizm, o cümlədən inanc və ibadət yerlərində törədilən erməni vəhşiliyini dünya ictimaiyyətinə nümayiş etdirməkdir.

Ekran əsərində ermənilər tərəfindən Şuşa şəhərindəki Yuxarı Gövhər ağa məscidinin planlı şəkildə təhqir edilməsi faktlarını təsdiqləyən onlarca arxiv sənədlərindən və videogörüntülərdən istifadə ediləcək. Ermənistan hökumətinin öz siyasi məqsədləri üçün 2018-ci ildə məsciddə apardığı qeyri-qanuni "bərpa" işlərinin yaratdığı fəsadlar da nümayiş olunacaq.

İşğal dövründə məsciddə törədilmiş vandalizm aktlarının bu gün aradan qaldırılması işıqlı sabaha aparan yol kimi filmin əsas süjet xəttini təşkil edəcək. Filmin ssenarisini müzakirə etmək üçün H.Cavid parkına toplaşan layihə əməkdaşları film barədə öz fikir və mülahizələrini bölüşüblər və onların hər biri görəcəkləri işlər barədə tapşırıqlar alıblar. Filmin ssenari müəllifi AMEA A.Bakıxanov adına Tarix İnstitutunun əməkdaşı Faiq İsmayılov, rejissoru kinematoqraf Amil Amal, əməkdaşlar Səbinə Novruzzadə, Xəyalə Quliyeva və Amil İsmayılzadədir.




# V İslam Həmrəyliyi Oyunları

**İslam dünyasının ən mötəbər idman tədbiri - V İslam Həmrəyliyi Oyunlarında 56 ölkədən 4 mindən çox atlet qalib adı uğrunda gərgin mübarizə aparır. Bütün nüfuzlu turnirlərdə uğurla çıxış edərək Azərbaycanın adını daim uca tutan idmançılarımız qardaş ölkə Türkiyədə növbəti tarixi nəticələrə imza atmaqdadırlar.**

# Gimnastlarımız tarix yazdılar



Azarkeşlərin medal gözlədiyi idman növləri sırasında gimnastika da xüsusi yer tuturdu. Azərbaycan gimnastlarının Konyada qazandıqları medalların sayı 17-yə (8 qızıl, 7 gümüş, 2 bürünc) çatıb.

Ümumiyyətlə, digər idman növləri ilə yanaşı, gimnastika da ölkəmizdə kifayət qədər populyarlığa malikdir. Son illər idmanın bu növü sürətlə inkişaf edir. Onun bütün növlərində gözəllik, güc, incəsənət bir-birini tamamlayır. İdmançının hansı alətdə çıxış etməsindən və ya sərbəst hərəkətləri yerinə yetirməsindən asılı olmayaraq, tamaşaçı böyük zövq alır, insanın yaratdığı möcüzə qarşısında heyrətə gəlir.

Yüksək səviyyədə dövlət qayğısı sayəsində bu gün Azərbaycan dünyanın idman mərkəzlərindən birinə çevrilib. Digər idman növləri ilə yanaşı, gimnastika da diqqətdən kənarda qalmayıb. Bu nailiyyətlər Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın federasiyaya rəhbərliyi sayəsində mümkün olub. Başqa sözlə, 2002-ci ildən Azərbaycan Gimnastika Federasiyasının prezidenti olan Mehriban xanım Əliyevanın fəaliyyəti nəticəsində ölkədə idmanın bu növünün əsl inkişaf mərhələsi başlamışdır.

Gimnastikanın bütün növlərinin, maddi-texniki bazasının gücləndirilməsi, bu idman növünün kütləvilaşməsi istiqamətində görülən işlər öz bəhrəsini verməkdədir.

Qeyd edək ki, V İslam Həmrəyliyi Oyunları çərçivəsində aerobika gimnastikası və bədii gimnastika yarışlarının final mərhələləri keçirilib. Bədii gimnastika üzrə fərdi proqramda qüvvəsini sınayan Zöhrə Ağamirova lent və gürzlərlə qızıl, halqa ilə gümüş, topla hərəkətlərin icrasında bürünc medal qazanıb.

Oyunlarda Güllü Ağalarzadə, Ləman Əlimuradova, Kamilla Əliyeva, Zeynəb Hümmətova, Yelizaveta Luzan və Darya Sorokinadan ibarət bədii gimnastika üzrə qrup hərəkətləri komandamız 3 lent və 2 topla qızıl, 5 halqa ilə hərəkətlərin icrasında isə gümüş medal əldə edib.

Final mərhələsində fərdi proqramda mübarizə aparan təmsilçimiz İlona Zeynalova gürzlərlə 4-cü, lentlə hərəkətlərin icrasında 6-cı olub.

Komandamızın digər üzvü Alina Gözəlova topla 4-cü, halqa ilə hərəkətlərin icrasında 7-ci pillədə qərarlaşıb. Bununla da bədii gimnastika üzrə yığma komandamızın üzvləri V İslam Həmrəyliyi Oyunlarını 8 medalla (5 qızıl, 2 gümüş, 1 bürünc) başa vurublar.

Oyunlarda aerobika gimnastikası üzrə təmsilçilərimiz də uğurlu çıxışları ilə yadda qalıblar. Belə ki, fərdi proqramda mübarizə aparan gimnastlarımız Vladimir Dolmatov qızıl, Mədinə Mustafayeva isə gümüş medala sahib çıxıb. Vladimir və Mədinə qarışıq cütlük proqramında bütün rəqiblərini üstələyərək çempion olublar. Təmsilçilərimiz M.Mustafayeva, V.Dolmatov və Xoşqədəm Quliyeva üçlük proqramında ikinci pillədə qərarlaşıblar. Bu növ üzrə komandamızın üzvləri oyunları 5 medalla (2 qızıl, 3 gümüş) başa vurublar.

Qeyd edək ki, oyunlar çərçivəsində bu gün və sabah qadın idman gimnastlarımız mübarizəyə qoşulacaqlar.

# Cüdoda "medal yağışı"

Türkiyənin Konya şəhərində keçirilən V İslam Həmrəyliyi Oyunlarının başa çatmasına sayılı günlər qalıb. Bütün idman növlərində bir-birindən maraqlı idman mübarizələrinin şahidi oluruq. Növbəti yarış günündə də idmançılarımız müxtəlif idman növlərində uğurla çıxış edərək ölkəmizin hesabına medallar yazdırdılar. Sözsüz ki, daha çox diqqət mərkəzində olan və medal gözlənilən idman növlərindən biri də cüdodur. Cüdoçularımız islamiadanın ilk yarış günündə qazandıqları medallarla xalqımızı sevindirdilər. Bu nəticələrlə cüdoçularımız növbəti dəfə ölkəmizin idman şöhrətini yüksəklərdə saxlayıblar.

60 kq çəki dərəcəsində yarışan cüdoçumuz Balabəy Ağayev yarımfinalda türkmənistanlı həmkarı Hakberdi Cumayevə qalib gələrək finala vəsiqə qazanıb. Cüdoçumuz həlledici mərhələdə özbəkistanlı Kemran Nurillayev ilə üz-üzə gəlib. Görüşü qalib başa vuran cüdoçumuz islamiadanın qalibi olub. Fəxri kürsünün ən yüksək pilləsinə qalxan idmançı başda Azərbaycan Cüdo Federasiyası olmaqla, bütün məşqçilərə təşəkkürünü bildirib: "Hər zaman mənə kömək ediblər. Gələcəkdə olimpiya çempionu olmağa çalışacağam. Bu medalın mənim üçün çox böyük önəmi var. Neçə vaxtdır zədəli olduğumdan əziyyət çəkirdim. Avropa çempionatında 5-ci olmuşdum. Şükürlər olsun ki, əziyyətim yerdə qalmadı".

Digər cüdoçularımızdan Nəriman Mirzəyev, Telman Vəliyev (hər ikisi 73 kq), Könül Əliyeva (48 kq) da yarımfinala vəsiqə qazanıblar.

73 kq çəkidə yarışan idmançımız Nəriman Mirzəyev yarımfinalda qırğızıstanlı idmançı Çingizxan Saqinaliyevi məğlub edib. Nəriman finalda özbəkistanlı Şaxram Axadov ilə qarşılaşmadan məğlub ayrılaraq islamiadanın gümüş medalına sahib olub.

73 kq çəki dərəcəsində yarışan digər cüdoçumuz Telman Vəliyev isə qırğızıstanlı idmançı Çingizxan Saqinaliyevə qalib gələrək bürünc medala layiq görülüb.

48 kq çəki dərəcəsində mübarizə aparan cüdoçumuz Könül Əliyeva finalda türkiyəli idmançı Tuqce Beder ilə qarşılaşıb. Rəqibinə uduzan idmançımız "Konya-2021"i gümüş medalla başa vurub.



## Növbəti qızıl



Sablya üzrə qadınlardan ibarət Azərbaycan milli komandası Türkiyənin Konya şəhərində keçirilən V İslam Həmrəyliyi Oyunlarında final görüşünü keçirib. Yığmamız qızıl medal uğrunda qarşılaşmada Özbəkistan seçməsi ilə qarşılaşıb.

Rəqibinə 45:34 hesabı ilə qalib gələn Azərbaycan islamiadanın qalibi olub.

## Məryəmdən uğurlu çıxış

Türkiyənin Konya şəhərində keçirilən V İslam Həmrəyliyi Oyunlarında Azərbaycan üzgüçüsü uğurla çıxış edib. Komandamızın üzvü Məryəm Şeyxəlizadəxangah 50 metr məsafəyə batterflay üsulla üzmə yarışlarında gümüş medal qazanıb.

## Millimiz "bürünc" üçün oynayacaq

Futbol üzrə Azərbaycan milli komandası islamiadada yarımfinal oyununa çıxıb. "19 iyul" stadionunda təşkil olunmuş qarşılaşmada Türkiyə millisi ilə üz-üzə gələn yığmamız 0:1 hesabı ilə uduzub. Yeganə qolu 43-cü dəqiqədə Məhəmməd Gümüşkaya vurub. Bu qələbə sayəsində Türkiyə millisi finala çıxıb.

Azərbaycan millisi isə 3-cü yer uğrunda görüşdə Əlcəzair seçməsi ilə görüşəcək.

## Qılıncoynatmada "gümüş" nəticə



Türkiyənin Konya şəhərində keçirilən V İslam Həmrəyliyi Oyunlarında qılıncoynatmanın sablya növündə qadınların şəxsi yarışına yekun vurulub. Finalda Azərbaycan sablyaçısı Palina Kaspiaroviç Türkiyə təmsilçisi İrina Şçuklaya 14:15 hesabı ilə uduzaraq gümüş medala layiq görülüb. Yarımfinalda Palina Kaspiaroviçə 9:15 hesabı ilə məğlub olan Səbinə Kərimova və İrina Şçuklaya 10:15 hesabı ilə uduzan Valeriya Bolşakova isə V İslam Həmrəyliyi Oyunlarının bürünc medalını qazanıblar.

## Qadın voleybolçularımız 3-cü oldular

Azərbaycanın qadın voleybolçulardan ibarət millisi Türkiyənin Konya şəhərində keçirilən V İslam Həmrəyliyi Oyunlarında bürünc medal qazanıb. Yığmamız üçüncülük uğrunda görüşdə Kamerunla üz-üzə gəlib. Qarşılaşma Azərbaycan komandasının 3:0 (27:25, 25:13, 25:17) hesablı qələbəsi ilə yekunlaşıb.

"2017-ci ildə Bakıda keçirilmiş IV İslam Həmrəyliyi Oyunları ilə Türkiyədəki islamiadanı eyni tutmaq olmaz. Azərbaycandakı yarış daha yüksək səviyyədə təşkil olunub". Bu fikirləri mediaya açıqlamasında islamiadada bürünc medal qazanan Azərbaycanın qadın voleybolçulardan ibarət millisinin üzvü Ayşən Abduləzimova deyib. 29 yaşlı oyunçu bürünc medal uğrunda qarşılaşmada qalib gəldikləri Kamerun seçməsi haqqında danışıb: "Bu rəqibə qrupdakı ilk görüşün birinci setində uduzmuşduq. Onlar da qələbə qazanmaq istəyirdilər. Amma buna icazə vermədik. Amma yarımfinalda İranla matç istədiyimiz kimi alınmadı. Onlardan belə oyun gözləmirdik. Bizi bir az çaşdırdılar. Bu yarışdan medalla dönmək də böyük şeydir. Çünki burada bir az qarışıqdır. İstədikləri zaman oyunun vaxtını dəyişə bilirlər. Biz burada hər şey gözləyirdik. Dünən İranla yarımfinal oyununa saat 4-də çıxmalı idik. Amma qarşılaşmanı səhər saat 10-a saldılar. Bir gecədə görüşün vaxtını dəyişdilər".

## Dadaş Dadaşbəyli 2-ci yerə çıxdı



Azərbaycan Türkiyənin Konya şəhərində keçirilən V İslam Həmrəyliyi Oyunlarında növbəti medalı qazanıb. Ağırlıqqaldırmada Dadaş Dadaşbəyli gümüş medala sahib çıxıb. İdmançımız birdən qaldırmada 174 kq-nin öhdəsindən gəlib.

İdmançı zədə səbəbindən islamiadaya cəmi 20 gün ərzində hazırlaşdığını bildirib: "Buna görə də düşünürəm ki, nəticəni uğurlu hesab etmək olar. Qarşıdakı turnirlərdə daha yüksək səviyyədə çıxış etməyə çalışacağıq".

## Basketbolçularımız dörddəbir finalda

Azərbaycanın kişi basketbolçulardan ibarət 3x3 komandası V İslam Həmrəyliyi Oyunlarında ardıcıl 3-cü qələbəsini qazanıb. Yığmamız bu dəfə Mərakeşi məğlubiyyətə uğradıb. Qarşılaşmanın əvvəlindən təşəbbüsü ələ keçirən milli komanda sonadək üstünlüyünü qoruyub - 18:11. Bununla da yığma 1/4 finala vəsiqəni təmin edib. Bu mərhələdə rəqib İordaniya olacaq. Azərbaycanın Sudanla qrupdakı son matçı rəqibin oyuna gəlməməsi üzündən baş tutmayacaq və komanda texniki qələbə alacaq.

Qeyd edək ki, Azərbaycan millisi qrupdakı əvvəlki oyunlarında Maliyə 18:15, Türkiyəyə isə 21:12 hesabı ilə qalib gəlib.

*Hazırladı: Elçin CƏFƏROV, "Azərbaycan"*

Azercell abunəçilərinin nəzərinə

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 18.08.2022-ci il gecə saatları ərzində bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.

# "Azərenerji" dənizdə böyük estakada tikir

## Xəzərdə suyun səviyyəsinin düşməsinə görə Şüvəlandakı "Şimal" ES düşdüyü kritik vəziyyətdən çıxarılır





"Azərenerji" ASC-nin Mətbuat xidmətindən verilən məlumata görə, Xəzər dənizində son 20 ildə su səviyyəsinin 2 metrə yaxın aşağı düşməsi ölkənin ikinci böyük elektrik stansiyası olan və Bakının 40 faizdən artıq ərazisini elektrik enerjisi ilə təchiz edən, Şüvəlan qəsəbəsində yerləşən "Şimal" Elektrik Stansiyasının işini ciddi təhlükə ilə üzləşdirib.

Məhz buna görə də "Şimal" Elektrik Stansiyasını yaxın perspektivdə dayanmaq təhlükəsindən çıxarmaq, stansiyanı xilas etmək üçün təxirəsalınmaz şəkildə Xəzər dənizinin içərisinə doğru soyuq suyu 8 metr dərinlikdən götürülməsinə imkan verən 540 metr uzunluqda estakadanın və 2 yerdə su nasos stansiyalarının tikintisinə başlanılıb. Su səviyyəsinin gündən-günə aşağı düşməsi stansiyanın soyutma suyunun götürülməsində ciddi problem yaradırdı, o zaman yaxın illərdə ən böyük həcmdə enerji istehsal edən və ümumi gücü 800 meqavat olan "Şimal-1" və "Şimal-2" Elektrik stansiyalarının yaxın perspektivdə fəaliyyətini tamamilə dayandırması qaçılmaz olacaqdı. Yeni estakada və su nasos stansiyalarının tikilməsi isə nəinki stansiyaları xilas edəcək, üstəlik, daha dərinlikdən götürüldüyünə görə soyutma suyu 2,6 dərəcə aşağı temperaturda olacaq. Yeni estakada üzərində hər iki tərəfdən ümumilikdə 4 boru çəkiləcək və 2 nasos stansiyasında 8 nasos fəaliyyət göstərəcək. Yeni estakadanın tikintisi prosesi növbəli iş prinsipi əsasında aparılır.

Xəzər dənizində su səviyyəsinin düşməsinə görə yeni estakada və su nasos stansiyasının tikilməsi "Şimal" Elektrik Stansiyasından əvvəl "Sumqayıt" Elektrik Stansiyasında uğurla həyata keçirilib, öz müsbət nəticəsini verib.

"Şimal" Elektrik Stansiyasının yeni suqəbuledici kompleksinin tikintisini də xarici şirkətlər deyil, yerli şirkət həyata keçirir və hazırda işlər tərtib edilmiş qrafiki bir ay qabaqlayır. Bununla da nəhəng layihənin 2023-cü ilin ilk yarısında başa çatması nəzərdə tutulur.

## "Şəki Toxucu Xırdavat" Açıq Tipli Səhmdar Cəmiyyətinin səhmdarlarının nəzərinə!

"Şəki Toxucu Xırdavat" Açıq Tipli Səhmdar Cəmiyyəti İdarə Heyətinin sədrinin vəzifədən azad edilərək həmin vəzifəyə yeni şəxsin təyin edilməsi ilə bağlı cəmiyyətin növbədənkənar ümumi yığıncağının keçirilməsi 19 sentyabr 2022-ci il saat 11:00-a (Ünvan: Bakı şəhəri, Yasamal rayonu, Qədirli küçəsi 125) təyin edilmişdir. Səhmdarların həmin yığıncaqda iştirakı zəruridir.

*İdarə Heyəti*

## Azərbaycan Respublikası Mərkəzi Bankı

### bankın əməkdaşları üçün tibbi sığorta xidmətlərinin satın alınması üzrə tender elan edir

Azərbaycan Respublikasının Mərkəzi Bankı "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq öz əməkdaşlarının tibbi sığortalanması üzrə açıq tender keçirir.

Tender proseduru 28 sentyabr 2022-ci il saat 15:00-da Azərbaycan Respublikası Mərkəzi Bankının inzibati binasında (Bakı şəhəri, R.Behbudov küçəsi 90) keçiriləcəkdir.

İddiaçı qismində qanunvericilikdə nəzərdə tutulmuş qaydada sığorta fəaliyyətinə lisenziyası olan, müvafiq sığorta növünün aparılması üzrə rəsmi icazə almış sığorta şirkəti çıxış edə bilər.

Hesabat dövrünün sonuna iddiaçının məcmu kapitalı qanunvericiliyə müvafiq olaraq hesablanmış tələb olunan kapitalın məbləğindən az olmalıdır.

Tenderdə iştirak etmək üçün iddiaçı aşağıdakı sənədləri təqdim etməlidir:

- *tenderdə iştirak etmək üçün ərizə;*
- *iddiaçının hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya hüquqi şəxslərin dövlət reyestrindən çıxarış) notariat qaydasında təsdiq edilmiş surətləri, bank rekvizitləri;*
- *iddiaçıya Azərbaycan Respublikasında sığorta fəaliyyətini həyata keçirmək hüququ verən xüsusi razılığın (lisenziyanın) və könüllü tibbi sığorta növü üzrə müvafiq qaydada təsdiq olunmuş qaydaların surəti;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *tenderdə iştirak haqqının ödənilməsi haqqında bank arayışı;*
- *iki nüsxə (əsli və surəti) Azərbaycan dilində tender təklifi (Tender təklifi 11 noyabr 2022-ci il tarixədək qüvvədə olmalıdır);*
- *tender təklifinin qiymətinin 1 (bir) faizi məbləğində bank təminatı (tenderin əsas şərtlər toplusuna əlavə edilən bank qarantiyası formasında);*
- *iddiaçının son 1(bir) ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son 1 (bir) il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq dövlət orqanından arayış;*
- *iddiaçının tibbi sığorta fəaliyyəti sahəsində ən azı 3 (üç) il təcrübəsinin olması barədə məlumat;*
- *sığorta qanunvericiliyinə uyğun olaraq onunla əlaqəli şəxs olmayan və ya iddiaçı üzərində əhəmiyyətli nəzarəti həyata keçirməyən ən azı 2 (iki) korporativ müştəri tərəfindən verilən tövsiyə məktubu;*
- *tenderin əsas şərtlər toplusunda iddiaçının ixtisas uyğunluğuna dair tələb olunan digər məlumatlar.*

İddiaçı tender təklifini və tender təklifinin bank təminatını 27 sentyabr 2022-ci il saat 18:00-a qədər möhürlənmiş, imzalanmış, yazılı surətdə ikiqat zərfdə, digər tələb olunan sənədləri isə ən geci 19 sentyabr 2022-ci il saat 18:00-a qədər möhürlənmiş, imzalanmış, yazılı surətdə bağlı zərfdə Mərkəzi Bankın Bakı şəhəri, R.Behbudov küçəsi 90 ünvanında yerləşən inzibati binasında Tender komissiyasının əlaqələndirici şəxsinə təqdim etməlidir. Göstərilən vaxtdan gec təqdim olunmuş zərf və sənədlər açılmadan geri qaytarılacaq və iddiaçı tenderə buraxılmayacaqdır.

**İştirak haqqı 200 (iki yüz) manatdır.** Tenderdə iştirak haqqı Azərbaycan Respublikası Mərkəzi Bankının aşağıdakı hesabına köçürülməlidir:

**Azərbaycan Respublikasının Mərkəzi Bankı**
**Kod: 501004**
**VÖEN: 9900071001**
**Hesab: AZ25NABZ01701190000000001944**
**Müxbir hesabı: AZ74NABZ01451700000000001944**
**S.W.I.F.T. BIK NABZAZ2C**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**
**Xidmətin göstərilməsinə başlanma vaxtı: 27.11.2022-ci il.**
**Xidmətin göstərilməsi müddəti: 1 (bir) il müddətində.**
**Qiymətləndirmə amilləri: qiymət və texniki amillər.**

Tenderdə iştirak etmək istəyən sığortaçılar iştirak haqqının ödənilməsi barədə bank arayışını təqdim edərək Mərkəzi Bankın Bakı şəhəri, R.Behbudov küçəsi 90 ünvanında yerləşən inzibati binasında Tender komissiyasının əlaqələndirici şəxsindən Azərbaycan dilində tərtib edilmiş tenderin əsas şərtlər toplusunu əldə edə bilərlər.

***Tender üzrə əlaqələndirici şəxs:***
***Elvin Şirdanov (Hüquq departamenti). Telefon: 493-11-22 (428)***
***Akif Əsgərov (İnzibati və satınalmalar departamenti)***
***Telefon: 493-11-22 (225)***

*Satınalmalar komissiyası*

## B İ L D İ R İ Ş

"Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin Tikinti-Təchizat Birliyi" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən keçirilmiş, "Azərbaycan" qəzetinin 15.06.2022-ci il tarixli 125 (9004) sayında dərc edilmiş təkliflər sorğularının nəticələri üzrə 15 avqust 2022-ci il tarixdə "Maxmedia" Məhdud Məsuliyyətli Cəmiyyəti (VÖEN: 1700438721) ilə "Videoqrafika, videoçarxların hazırlanması, reklamların internetdə yerləşdirilməsi, bukletlərin dizaynı, bukletlərin dizaynına düzəlişlərin edilməsi, açıq havada reklamların yerləşdirilməsi üçün dizayn, konfrans otaqları üçün arxa panonun hazırlanması və quraşdırılması, xüsusi teksturalı blankların dizaynı və hazırlanması işlərinin görülməsi"nin satın alınmasına dair 342 784,10 manat və "Arxa panonun, loqotipin hazırlanması və quraşdırılması, dizayn və fərdiləşdirmə işlərinin görülməsi"nin satın alınmasına dair 43 270,60 manat məbləğində satınalma müqavilələri bağlanmışdır.

*Tender komissiyası*

# Şəhid övladları üçün təşkil edilən yay düşərgəsi başa çatıb





Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin dəstəyi ilə "Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyi tərəfindən şəhid uşaqları üçün təşkil olunan yay istirahət düşərgəsi başa çatıb.

Nazirliyin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, xüsusi hazırlanan proqramlarla həyata keçirilən düşərgənin sonuncu günündə şəhid övladları peşəkar təlimçilərin təşkil etdiyi əyləncəli idman oyunları və animatorların qatıldığı şou-proqramda iştirak ediblər.

Peşəkar psixoloqun yardımına ehtiyacı olan uşaqlarla fərdi reabilitasiya işi aparılıb.

Günün sonunda düşərgə iştirakçıları üçün minifutbol oyunu təşkil edilib.

İntellektual və əyləncəli oyunlarda özlərini sınayan şəhid övladlarına sertifikatlar təqdim olunub.

Qeyd edək ki, Sosial Xidmətlər Agentliyinin sosial sifarişi əsasında Qubada həyata keçirilən layihəyə iyulun 29-da başlanılıb. İkimərhələli yay düşərgəsinə ölkəmizin müxtəlif bölgələri üzrə 100-dək şəhid uşağı (valideynlərindən biri də nəzərə alınmaqla 140 nəfər) cəlb edilib.

OXUCULARIN NƏZƏRİNƏ!
"AZƏRBAYCAN"
qəzetinə 2022-ci il üçün
abunə yazılışı kampaniyası davam edir!

Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.
Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

1 illik
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat
6 aylıq
62,40 (altmış iki manat qırx qəpik) manat
3 aylıq
31,20 (otuz bir manat iyirmi qəpik) manat

Hörmətli oxucular!
Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.

ABUNƏ YAZILMAĞA TƏLƏSİN!

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi " QSC

### Zığ "GTTZ üçün "TAVRİDA" markalı müxtəlif elektrik avadanlığı və ehtiyat hissələrinin satın alınması üzrə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 22 avqust 2022-ci il saat 17:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, M.Useynov küç., 2, AZ 1003**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263**

*Tender komissiyası*

# Son 4 ildə ondan çox yeni sosial ödəniş növü təsis olunub

Dövlət başçısının tapşırığına əsasən, son illər sosial ödənişlərin ciddi şəkildə artırılması ilə bərabər, yeni sosial ödəniş növləri də təsis olunmaqla sosial təminat sisteminin əhatə dairəsi xeyli genişləndirilib. AZƏRTAC Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr şöbəsinə istinadla həmin sosial ödəniş növləri barədə məlumat verir.

**2019-cu ildə**
- müharibə veteranlarına;
- birinci dərəcə əlilliyi olanlara qulluq edənlərə;
- əlilliyi olan 18 yaşadək uşaqlara qulluq edənlərə;

Prezidentin aylıq təqaüdü təsis olunub.

**2021-ci ildə**
- Vətən Müharibəsi Qəhrəmanlarına (onlardan vəfat edənlərin ailə üzvlərinə);
- İşləməyən pensiyaçı elmlər doktorlarına;
- İşləməyən pensiyaçı fəlsəfə doktorlarına;

Prezidentin aylıq təqaüdünün
- valideynlərini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş uşaqları övladlığa götürən şəxslərə;
- sağlamlıq imkanları məhdud uşaqları övladlığa götürən şəxslərə;

hər uşaq üçün aylıq müavinətin təyin edilməsinə başlanıb.

**2022-ci ilin əvvəlində**
- Vətən müharibəsinin iştirakçılarına "Müharibə veteranı" adı verilərək Prezidentin aylıq təqaüdü təyin olunub.

Həmçinin:
- 2019-2020-ci illərdə 1997-ci il avqustun 2-dək olan dövr üzrə şəhid hərbi qulluqçuların və daxili işlər orqanları əməkdaşlarının vərəsələri birdəfəlik ödəmə ilə təmin edilib;
- Bu günlərdə isə Birinci Qarabağ müharibəsi əlillərinin birdəfəlik ödəmə ilə təminatına başlanılıb.

Bütün bunlar ölkəmizdə sosial təminat sisteminin gücləndirilməsində mühüm addımlar olmaqla yanaşı, həm də həssas qruplara dövlət qayğısının daha da artmasına imkan verib.

## ALLAH RƏHMƏT ELƏSİN!

Baş Prokurorluğun rəhbərliyi və kollektivi Ağsu rayon prokurorunun köməkçisi

**ŞÖLƏ İLHAM QIZI QULİYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

"Azərişıq" ASC-nin kollektivi İnformasiya Texnologiyaları Departamentinin rəis müavini Adil Poladova qızı

**TÜRKANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 6294
Sifariş 2277
Qiyməti 40 qəpik